MEHPARƏ MUXTARQIZI

# Yerin, göyün, Xocalı, qan ağladı

- 12229 -
...aycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

BAKI 2010

M 03(2010)

**Redaktor** **Hənifə Alışanoğlu**

Bu kitab şairə Mehparə Muxtarqızının oxucularla ikinci görüşüdür. Bu kitabda Vətən məhəbbətli üdvi və müqəddəs hisslərlə dolu sevgi ünvanlı şeirlər toplanmışdır.

**M** $\frac{\textbf{051 (L-041)}}{\textbf{051-03(0160)2010}}$ **Sifarişlə**

"Şuşa" nəşriyyattı 2010

## Ülvi duyğuların arxasında

*Arabir mətbuat səhifələrində şeirlərini oxusam da, açığı bu şairə xanımla şəxsi tanışlığım yoxdu. İndi, budur. şairənin "Nurlan" nəşriyyatı tərəfindən nəfis şəkildə yenicə işıq üzü görmüş ilk kitabı ilə üz-üzəyəm. Əslən həmyerlim olan Mehparə Muxtar qızının "Sevgi yollarnıda səni gözlədim" adlı şeirlər toplusunu vərəqlədikcə, poeziya dünyasına yeni bir istedadlı qələm sahibinin gəldiyinə ürəkdən sevindim.*

*Bu yaxınlarda bu gözəl təbiətli, şirin dilli, son dərəcə səmimi və mehriban olan Mehparə xanımla ilk görüş duyğularımı tərpətdi. Şeirləri də özü kimi sadə və səmimi hissələrlə dolu olan bu xanımı ürəkdən təbrik elədim və ona gələcək poeziya yollarında inamlı addımlar arzuladım. Mehparə xanımın bu ilk kitabını sonadək tələsmədən oxudum. Sevgi yüklü şeirləri məni ürəkdən "ovsunladı" desəm - səmimiyyətimə inanın. Oxucularımız və xüsusilə də yüksək poetik duyumlu qələm sahibləri yaxşı bilir ki, ürəyində-qəlbində yüksək sevgi hissləri daşımayan, məhəbbət adlı ülvi duyğuları olmayan heç bir kəs gözəl, lirik duyğularla zəngin olan şeirlər yaza bilməz. Duyumsuz yazılan sevgi ünvanlı şeirlər isə söz yığımından başqa bir şey ola bilməz. Belə ürəksiz. duyğusuz yazılmış misralar heç bir oxucunun rəğbətini qazana bilməz.*

*Sevindim ki, ürəyi gözəl hisslərlə coşub-daşan, yüksək poetik ilhama malik olan şairə Mehparə Muxtar qızının elə ilk kitabı şeirsevərlərin stolüstü kitabına çevrilib. Xüsusilə, gənc oxucuların duyğularınıa yaxın olan şeirləri onun uğurları tapıntılarıdır.*

*Öyrəndim ki, Mehparə xanım ikinci kitabın nəşrə hazırlayır. Bu kitabda o, öz lirik düşüncələrini qələmə almaqla yanaşı, həmçinin çox ağrılu bir mövzuya da toxunub. Əhməd Ca-*

*vad sevgisi şairəni əlinə qələm almağa və 1937-ci ilin günahsız qurbanlarından biri olan Əhməd Cavab haqqında bir poema yazmağa məcbur eləyib. Doğrudur, mövzunun ağırlığı və tarixə çevrilmiş o acı günləri xatırlamaq nə qədər çətin olsa da, Mehparə xanım hər halda bu işə girişib və qələmini sınaqdan çıxarıb.*

*İnsafən, bu müəllifin ilk poeması olmasına baxmayaraq, şairə bu işin öhdəsindən layiqincə gəlib.*

*Hörmətli oxucular, səmimiyyətlə etiraf edim ki, yüksək əxlaqa, gözəl mədəniyyətə malik olan bu şairə xanımla tanışlıqdan məmnunluq duydum. Şirin-şəkər diliylə, səmimi danışığı və qələmə aldığı sevgi ətirli şeirlərilə ürəyimə yol tapan şairə xanım Mehparə Muxtar qızına gələcək poeziya yollarında uğur diləməkdən başqa bir yolum qalmadı.*

*Sənə uğurlar arzulayıram, Mehparə xanım! İnanıram ki, bizi yeni-yeni kitablarımızla sevindirəcəksiniz!*

***

***Bu günlərdə eşitdim ki, həmyerlimiz, gənc şairə Mehparə Muxtarqızının ilk şeirlər kitabı işıq üzü görüb. "Sevgi yollarında səni gözlədim" adlanan bu ilk kitabındana birini də mənə göndərmişdi. Və çox istəmişdim ki, yeni kitab haqqında təəssüratlarımı bölüşmək üçün onunla görüşüm. Və soyuq fevral günlərinin birində onun qonağı oldum. Bu görüşdən sonra şairə xanım Mehparə haqqında duyğularımı şeirə çevirdim...***

## Nəğmələnsin misraların

***Biz görüşdük... şaxta, soyuq..***
***Qış sözünü çırpır üzə.***
***Qara, yağışa qarışıb***
***Səpələnir çölə, düzə.***

***İsindirdi ürəyimi,***
***Bu görüşün həyəcanı.***





***Duyğuların bulaq kimi.***
***Ürəyin sevgi məkanı.***

***Sevgi yüklü duyğuların.***
***Ovsunladı bir an məni.***
***Dilin şirin, sözün şirin,***
***Vallah, etdin heyran məni.***

***Yaz, ay bacım, neçə-neçə,***
***Arzuların hələ öndə.***
***Şair könlüm duydu səni,***
***İstedadın göz önündə.***

***Səmimisən... nəğmələnir,***
***Duyğuların öz-özünə.***
***Nə yaxşı ki, elə indii***
***Gəldim sənin görüşünə.***

***Arzuların qucaq-qucaq,***
***Söz-söhbətin tutdu məni.***
***Hopdurursan sətirlərə,***
***Ürəyinin həsrətini.***

***Gah od tutub tonqalında,***
***Alışırsan çatır-çatır.***
***Bacım, gah da şirin dilin***
***Sözlərinə şəkər qatır.***

***Haray çəkib Şuşam deyə,***
***Dağa-daşa ün salırsan.***
***Kəlbəcərin, Cəbrayılın***
***Həsrətindən saralırsan.***

***Vətən dərdi... şəhid dərdi,***
***Sızıldadır için-için.***

*Ocağından ayrı düşüb,*
*Sanki yaralı göyərçin.*

*Misralarda, sətirlərdə,*
*Göz yaşının izi durur.*
*Duyğuların yanğısında,*
*Ürəyinin közü durur.*

*Mən duyuram qeyrətindən,*
*Od tutursan Həcər kimi.*
*Düşmənlərin gözlərinə,*
*Ox salırsan xəncər kimi.*

*Ürəyinin sevgisini,*
*Əridirsən sətirlərdə.*
*Yüklənirsən ağrılara,*
*Üzülürsən qəmə, dərdə.*

*Gah od olub, şimşək olub,*
*Parlayırsan göy üzündə.*
*Gah kipriyin yel gətirir,*
*Gilələnir yaş gözündə.*

*Yaz, ay bacım, sənin dərdin,*
*Anaların fəryadıdırı.*
*Ülvü hissin, məhəbbətin,*
*Səadətin bal dadıdır!*

*Şeir. sənət dünyasında.*
*Qoy səslənsin adın-sanın.*
*Neçə-neçə ürəklərdə.*
*Nəğmələnsin misraların!*

**Hənifə Alışanoğlu,**
**Yazıçılar birliyinin üzvü,**
**19 kitabın müəllifi, şair**








## "Hər an qəlbimizdəsən"

*37-38-ci illərni qurbanlarından*
*olan şair Əhməd Cavadın*
*xatirəsinə həsr olunub.*

Gecənin bir aləmi
Qatar yola düzəlir!
İçindəki insanlar
İşgəncəyə-əzaba
Ölümə sürüklənir.
Hara gedir bu qatar?
Hələ heç kim bilməyir.
Qansızlar, amansızlar!

Vicdanlı insanları,
Xalqını sevənləri,
Haqq sözün deyənləri,
Doldurub qatarlara
Böhtan atıb, şərləyib,
Allahını görməyib.
"Ölüm" hökmünü verib.
Aparır uzaqlara!
Lənət olsun onlara!
Ananı balasından ,
Zülümlə ayıranlara!
Bu qatarın içində
Kimlər yoxdur ilahi?
Bürüyübdür hər yanı
İnsanların fəryadı.
Qatarın bir küncündə
aparırlar Cavadı!
Düşmənlər rəhm etməyir
Cavandı, ya qocadı.
Yalnız bir söz deyirlər.
O, Vətən dümanıdı!
Görən nədir günahı?
Şair Əhməd Cavadın?
Sevir xalqın, torpağın.
Haqq sözüylə susdurur
O Xain düşmənlərin!
Budur onun günahı...
"Ölmə qardaşım ölmə
düşmən çoxaldı" deyib,
Hər zaman hayqırardı!
Onun hər kəlməsindən,
Haqq sözü ucalardı!
Xalqını əsarətdən
Zülümdən qurtarmaqçün





Birliyə çağırardı.
Haqsızlığın içində
Az qala boğulardı.
Mübarizə aparıb,
Ürəyinin səsiylə
Çoxlfu şeir yazardı!
Susdurmaq üçün şairi,
Şərlə böhtanlayırlar.
Vətənindən, elindən,
Övladdan ayırırlar.
İndi Əhməd bu şərə.
İftiraya dözməyir.
İztirabdan, əzabdan
O, qurtulmaq istəyir.
Bilməyir şair indii
Hardadır övladları?
Vətən xaini kimi
Tanınır Ataları!
O Tukayı, Aydını
Yılmazı çox sevərdi.
Şükriyyəsiz həyatda
Yaşamaram deyərdi.
Şair hardan biləydi?
Sürətlə gedən qatar
Şükrüyyəni aparır!
İki sevən insanı
Bir-birindən ayırır...
Soyuq qış havasıdır
Fevralın son çağıdır.
Şaxtalı bir gecədə
Qəfl qatar dayanır!
Gələn bu əsirləri.
Vəhşiləşmiş məmurlar
Cəlladlar qarşılayır.

Düşürüb vaqonlardan
Bir küncə sürükləyir.
Siz, Vətən düşməninin
Arvadısız deyirlər.
Ələlərnidə dəyənək,
Qadınları döyürlər.
Kimi canın tapşırır,
Kimi soyuqdan donur.
Soyuq sərdabələrdə
Bu əsirlər yaşayır!
Şükriyyə səkkiz ildə
Həyatından əl üzür.
Hər bir əzaba dözür.
Onun ağlar gözləri
Balarını gəzir.
Axtarır Aydını
Tapmayır Tukayını.
Balaca Yılmaz üçün
Gecə-gündüz ağlayır.
Əhmədi güllələnir
Qəlbinə od ələnir.
Ona olan sevgisi
Qəlbindən silinməyir.
Vaxtsız-vədəsiz ölüm
Əhmədi qarşılayır.
Düşmənlər bu şairin
Həyatına son qoyur!
O dünyadan köçsə də,
Ürəklərdə yaşayır.
Haqq öz yerini tapır
O bəraət qazanır!
Bu günahsız insanlar
Əbədi haqq səsiylə
Könüləlrdə yaşayır.

**10.01.2009.**





## Yerin-göyün Xocalı qan ağladı"

Alışdı torpaqlar, yandı bu gecə,
Dodaqda gülüşlər dondu bu gecə.
Evlərdə çıraqlar söndü bu gecə,
Torpaqların düşmən əlində qaldı.
Yerin-göyün Xocalı qan ağladı!



Yağdırdı başına düşmən güllələr,
Can verdi sinəndə məzlum-körpələr.
İşgəncəylə öldü igid ərənlər,
Şaxtadan don vurdu, ayaqlar-əllər.
Yerin-göyün Xocalı qan ağladı!

Dağlarında, el-oban şəhid oldu,
Çeşmələrin gözü qan ilə doldu.
Analar-bacılar saçını yoldu,
Göydəki quşlar da qanad saxladı.
Yerin-göyün Xocalı qan ağladı!

Viran etdi, namərd düşmən torpağı,
Keçdi Xocalıya düşmən caynağı.
Qız-gəlinlər "Vətənə" dedi ağı.
Dağların da köksü qübar bağladı.
Yerin-göyün Xocalı, qan ağladı!

**26 fevral 2009-cu il**

## Ana Vətən

Dərdlə yüklüdür qəlbim
Daim yazır, yaradır.
Vətən dərdi, həsrəti,
Hər an məni ağladır.

Süzülür vərəqlərə.
Göz yaşım, gilə-gilə.
Dönüb, mənim qəlbimdə,
Vətən dərdi, nisgilə!

Vətən dərdi yandırır,
Ürəyimin başını.
Mən sevirəm Vətənin,
Torpağını-daşını!

Ağla, Mehparə ağla,
Axıt, göz yaşlarını.





Vətən yolunda ölən,
"Şəhid qardaşlarını".

Sən ağla şəhidlərin,
Narahat ruhlarını.
Balasını - axtaran,
Şəhid analarını!

Sən ağla ölənləri,
Ağla didərginləri.
Ağla, düşmən əlində,
Qalan "Ana Vətəni".

Gün gəlsin, igidlərim,
Vətən torpağın alsın!
Qarabağda, üç rəngli
Bayrağımız dalğalansın!

## "Yaz da gəldi, biz Vətənə dönmədik"

Namərd düşmən göz dikdi yurdumuza
Su çilədi, yanar ocağımıza.
Yaz gəldi, quşlar da, geri döndülər
Biz dönə bilmədik, el-obamıza!

Yazın gəlişini duya bilmədik,
Bu bahar qoynunda gəzə bilmədik.
Qəlbimizdə yurd həsrəti inlədik.
Yaz da gəldi, biz Vətənə dönmədik!

Bahar gəldi. açdı güləlr-çiçəklər
Ocağımda ağaclarım qurudu!
Dağ döşündə boynu bükük bənövşə
Qərib olan el-obamı ağladı!

Uca dağ da dözəmmədi bu dərdə,
İgidlərim qoynunda can verəndə!
Dərddən daşlar, qayalar da ovuldu
Namərd düşmən sinən üstdə gəzəndə!

Vətən deyib, can verdilər qocalar,
Qərib yerdə öldü ata, analar.
Bizi heç bir zaman bağışlamazlar
Torpağı almasaq narahat ruhlar!

Hər kəs dönsün öz isti yuvasına,
Həsrət qalmasın heç kəs torpağına.
Qəriblikdə kimsə qərib olmasın,
Qovuşsunlar, elinə-obasına!

## Qaytar məni, torpağıma-elimə!

Qocalmışam, az qalıbdır ömrümə
Çarə yoxdur, qərib yerdə dərdimə.
Can verəndə aparın Vətənimə,
Qaytarın siz torpağıma-elimə!

Fəryadına "Vətən" dözə bilmirəm
Çarəsizəm, imdadına gəlmirəm
Göz tutulub, el-obanı görmürəm
Vətənsizəm, bu torpaqda "qəribəm",
Qaytar məni, torpağıma-elimə!

İgidlərim qan içində keçinib,
Xain düşmən vətəni, viran edib.
Namuslu qız - gəlinəlr əldən gedib,
Evlər yandırıb, çıraqlar sönüb,
Qaytar məni, torpağıma-elimə!





Ulu "Tanrım" təkcə sən ümüdümsə.
Bəndələrin hər an pənah yerisən.
Sən hər kəsin harayına yetmisən.
Kimi haqqdır, kimi nahaq görürsən!
Qaytar məni, torpağıma-elimə!

Yeri-göyü "Tanrı" xəlq eyləmisən.
Sənki, hər cür möcüzəyə qadirsən!
Sən, ibadət edənləri sevirsən!
Qaytar məni torpağıma-elimə!

Sən bağışla, imanıma-dinimə
"Vətən" üçün ölən, şəhidlərimə
İslam - din yolunda ölənlərimə
Qovuşa bilmirəm, mən Vətənimə,
Qaytar məni, torpağıma-elimə!

## Ağlama, sil ay ana, göz yaşını

Baxışın qəlbimi yandırdı, Ana
- qan eylədi!
Sənin bu dərdinə
- göydəki, quşlar da
- bil fəqan eylədi!
Neyləyim, mən ay ana
- sən bir qərib tək,
- düşmüsən bu yerlərə,
Qalmısan, nə günlərə.
- Qoşulub - qəriblərə!
Həsrətsən meşələrə - çəmənlərə.
- Yam-yaşıl yamaclara,
- sən düzlərə.
Dağlara-dərələrə,
- axan gur - şəlalələrə!

Didərgin olub yaşamaq,
- yaraşarmı, de sənə?
Bir tikə çörək üçün,
- indi baxırsan əllərə...
Qalmısan, evsiz-eşiksiz,
- bu ahıl yaşda - çadırda
Vətənin qalıbdır darda,
- düşmənin tapdağı altda,
- alışıb, yanır torpaq da,
Evlərdə, sönüb çıraq da.
Ağla, sən doyunca ağla,
- Ay Ana!
Ağla Şəhidləri, ərənləri!
Qərib yerdə, yurd-yuvasız
"Vətən" deyib ölənləri!
Söylə sən dözmür ürək
- neynəməli?
Sil yenə göz yaşını
- Uca tut hər an başını
Sevindirmə ay ana
sən, o namərd düşmanını!
Alacaq düşmən əlindən,
- igidlər torpağını,
Qovacaqlar Qarabağdan
- gün gələcək,
- yağını!

## "Vətən məni bağışla, bu torpaqda qəribəm"

Mən Şuşamı hər gecə yuxularda görürəm,
Dostlarımla bir yerdə dağ döşüündə gəzirəm,
Əyilib bulaqların gözündən su içirəm,
Ayılanda yuxudan, göz yaşları tökürəm
Vətən məni bağışla, bu torpaqda qəribəm!





Burda indii özümə mən bağ-bağça salmışam,
Böyüdüyüm torpağa, yurda həsrət qalmışam,
Vətən dərdi qəldimdə, saçımı ağartmışam,
Necə unudum səni, qoynunda boy atmışam,
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Çox vaxt özüm-özümə yaman gileylənirəm,
Yurd-yuvasız özümü, hər an qərib bilirəm.
Mən Vətən həsrətini qəlbimdə gəzdirirəm
Olsada var-dövlətim. mən yurdsuz didərginəm,
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Kaş bu gün Qarabağda uçuq komam olaydı,
Yenə quşlar bağımda çoxlu yuva quraydı.
Quşların şən cəh-cəhi hər yana yayılaydı,
Qarabağ bülbüllərin xanəndə oxuyaydı.
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Yaman qəribsəmişəm torpağıma-yurduma,
Qovuşa bilməyirəm doğma Qarabağıma.
Həsrətəm dağ-dərəmə, sərin bulaqlarıma
Yaraşarmı, qəriblik de mənim bu çağıma?
Vətən məni bağışla, bu torpaqda qəribəm!

## Azərbaycan qadını

Vətəni qorumağa necə oğullar getdi
Ana bacılarımız başını qara örtdü.
Hər çətinliyə dözdü, övladını böyütdü
Ərlərini itirib. qara saçın ağ etdi!

Bu amansız talehin hər hökmünə dözdülər.
Onlar həm qadın işi, kişi işi gördülər.

Namusla, qeyrətlə yolunu gözlədilər.
Qardaşları, ərləri geriyə dönmədilər!

Heç bir kəsin önündə onlar əyilmədilər
Həyat mübarizədir, dözməliyik dedilər!
Bu namuslu, ismətli, ləyaqətli qadınlar.
Azərbaycan xalqına, ucalıq gətirdilər!

Uca tut sən başını Azərbaycan qadını!
Qorumusan vicdanla, sən qeyrətlə adını!
Sevmisən, hər bir zaman vətənini xalqını.
Bir gün məğlub edərsən, önündə düşmanını!

Şəhid olan oğlunun, bir gün ruhu şad olar.
Düşmənlərin əlindən, torpaq geri alınar!
Elim şənlik eyləyər, tonqallar yandırarlar,
Qarabağ şikstəsi, Qarabağda oxunar!

## "Müstəqil Azərbaycan"

***(28 may Azərbaycanda***
***Respublika günü kimi qeyd olunur)***



Məmməd Əmin yaratdı, bizə müstəqilliyi!
Xalqım bayram eylədi, bu "İstiqlal" gününü!
Türk övladı yaşatdı bu dostluğu, birliyi
Qorudu millətimiz hər an "Suverenliyi"
Dayaq oldu "Türk xalqı" millətimə, xalqıma,
Hopdu damarlarıma, axdı qanı-qanıma.
Namərd düşmən, diksə də gözünü torpağıma
Əzilməzdir xalqımız o qəddar düşmanıma
And içirik biz ölməz "Şəhidlərin" ruhuna!
Qanlarından yaranmış o, uca bayrağına!
Alacağıq torpağı, qanımız bahasına





Qayıdacaq, el-obam, torpağına-yurduna!
Gün gələcək, biz yenə "Qələbə" çalacağıq.
Düşməni, torpağımdan-yurdumdan qovacağıq.
Şəhidlərin, adını biz uca tutacağıq,
"Qarabağ" torpağında azad yaşayacağıq!

## Ağla sazım, sazım ağla"

Sinəm üstə köklənmisən
Nə susmusan, dillənmirsən
Vətən üçün qəribsəmisən
El-oba dərdi çəkirsən.
Ağla sazım, sazım ağla.
Səsinlə qəlbləri dağla!

Çal aşıq, bir qəmli hava,
Əlin toxunsun mizraba.
Didərgin olub el-oba
Ağla sazım, sazım ağla,
Səsinlə qəlbləri dağla!

Çal aşıq "Yanıq Kərəmi"
El ağlasın ərənləri.
Dərd yandırıb sinələri
"Vətən" yolunda öləni,
Ağla sazım, sazım ağla,
Səsinlə qəlbləri dağla!

Ağla, dağını-dərəni,
Çeşməni, gur şəlaləni,
Boynu bükük bənövşəni,
Ağla sazım, sazım ağla,
Səsinlə qəlbləri dağla!

Çeşmələrin, tutulubdur
Ağacların quruyubdur.
Gülün-çiçəyin, solubdur.
Dağ başın duman alıbdır,
Ağla sazım, sazım ağla,
Səsinlə qəlbləri dağla!

Səsin yayılsın hər yana.
Elin gəlsin harayına.
Düşmən qalsın yana-yana.
Əymə özünü düşmənə.
Ağla sazım, sazım ağla,
Səsinlə qəlbləri dağla!





# *Çiçəklər də Şəhidləri ağladı*

## "Ana məni gözləmə, geriyə dönməyəcəm"

***Lirik poema***

Ana sənə sözüm var, oxu gündəliyimdən
Sənə yadigar qalsın, ana bu sözlər məndən.
Ölsəm də qoruyacam mən Vətən torpağını,
Qovacağam ay ana torpağımdan yağını!

Düşmən önündə heç vaxt, ana əyilməyəcəm,
Torpağımdan düşmənə, ana pay verməyəcəm.
Vətən, torpaq yolunda, mən canımdan keçəcəm.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana bir gün günəş tək, qüruba enəcəyəm,
Mən şam kimi əriyib, əbədi sönəcəyəm.
Bilirəm, övladımın üzün görməyəcəyəm,
Ana məni gözləmə, geriyə dönməyəcəm!

Ana mənə laylanda, Vətəni sev demişdin,
Vətəni qorumaq üçün, sən bizi böyütmüşdün!
Vətəni darda qoyma. ay oğul söyləmişdin.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana, mən o yerlərə, bir daha gəlməyəcəm,
Bu torpaqda özümü, ana qərib biləcəm.
Məzarlıqdan ay ana, yolunu gözləyəcəm,
Ana məni gözləmə, geriyə dönməyəcəm!

Ana yarıma söylə, gözləməsin yolumu!
Oğul yadigarıdır, ana saxla oğlumu.
Namərd düşmən bağlayıb, ay ana əl-qolumu,
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana yaram ağrıdır, axır acı göz yaşım,
Dizin üstə olaydı, ay ana, bu gün başım!
Məni əvəz edəcək, bu gündə "Məzar-daşım"
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana Balan olubdur, qərib yerdə didərgin,
Məzarım olacaqdır düşmən əlində itgin.
Axtarıb tapacaqsan, ay ana, bəlkə bir gün.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana sil göz yaşını, Vətən düşmənə qalmaz!
Vətən şəhid verməsə, torpaq geri alınmaz!
Vətəni qorumayan oğuldan, oğul olmaz!
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Şəhidlərin anası ana heç vaxt, ağlamaz.
Qəlbində bir yara var, bilirəm ki, sağalmaz.
Ana şəhid olsaq da, Vətən bizi unutmaz.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Mənim körpə balamı, ay ana, böyüdərsən
Tapsan sən məzarımı, balama göstərərsən.
Atan Vətən yolunda şəhid oldu deyərsən,
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Balama mənim kimi. Vətəni sevdirərsən,
Ata əvəzi onu sevib-əzizləyərsən.
Ağlayanda ay ana, göz yaşların silərsən!
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

## İtirsən məni

Çəkirəm sevgilim mən həsrətini
Bəlkə də, bir daha görmədim səni.





Gün gələr həyatda itirsən məni,
Heç vaxt unutma sən, səni sevəni!

İllər, aylar ötər, mənsiz qalarsan.
Qəlbində sən məni xatırlayırsan.
Həyatdan köçsəm də, xəyallarında
Ötən sevgimizi sən yaşadarsan!

Dünyadan köçəndə sənin sevgilin
Gələn yollarına hər gün baxarsan.
Xatirə tək qalan nişan üzüyün.
Sən nişanə barmağına taxarsan!

Məzarlıqdan yarını axtararsan.
Sevgilinin məzarını taparsan.
Ayrılığa həsrətə dözməyəndə,
Mənim üçün göz yaşı axıdarsan!

## Şəhid oldu balalar

*Neft Akdemiyasında faciəli hadisə nəticəsində*
*şəhid olan gənclərimizə həsr edirəm.*

Şəhid oldu bu gün balalarımız!
Nakam köçdü gənc oğul-qızlarımız!
Anaların dərdinə şərik olub,
Göz yaşı axıtdı bütün xalqımız!

Mən də bu dərdi içimdə yaşadım,
İçin-için gecə-gündüz ağladım!
Dərdimi sizinlə bölüşmək üçün,
Göz yaşıyla vərəqlərə payladım!

Mən yaza bilmədim, əlim titrədi,
Gözlərim ağladı, qəlbim gülmədi.

Bu dünyadan nakam köçən gənclərin,
Ölümün yazmağa əlim gəlmədi!

Qatil necə qıydı gəncliyinizə?
Atəş açdı, bu gün hər birinzə!
Analar, nə təskinlik verim sizə?
Dözə bilməyirəm, bu dərdinizə!

Nə biləydin, Ana bu gün, bu səhər
Balan ölüm ilə üzləşəcəkdir.
Şəhid olub bir qatilin əliylə,
Balan cavan dünyadan köçəcəkdir?

Balanın ölümün duya bilsəydin
Ana, nalə çəkib fəryad edərdin.
Övladına atılan güllələrin,
Qarşısına Ana özün gedərdin...

Ana, ömrün boyu yaş tökəcəksən.
Sən özünü günahkar biləcəksən.
Bu gün səhər sən ayıldıb balanı
Əlinlə ölümə göndərəcəksən!

Bir daha üzünü görməyəcəksən
Gələn yollarına göz dikəcəksən.
Hər gün ana məzar önünə gəlib
Onun üçün göz yaşı tökəcəksən.

**30. 04. 2009.**

## "Qanlı gecə"

*20 Yanvar şəhidlərinə*

Şaxtalı bir gecədir
Gecə qan içindədir.







Ay da "Qanlı gecə"ni
Bu gün görmək istəmir.
Ulduzlar da səmada
Sanki göydə gizlənir.
Başımıza güllələr,
Yağış kimi ələnir.
Bu gün namərd düşmənlər
Günahsız insanların
Tanklarla, üstə gəlir!
Neçə-neçə igidlər
Tırtılların altında
Qanlarına bələnir!
Anaların naləsi,
Hər tərəfə yüksəlir!
Nə biləydik, bu gecə,
"Qanlı gecə" olacaq!
Neçə ana oğulsuz,
Gəlin ərsiz qalacaq.

Neçə döyünən ürək,
Bu gün susdurulacaq!
Düşmən bizlə yanaşı
Bizə "divan" tutacaq!
Bu gün hər kəs ölümün
Qoynuna atılacaq.
İnsanların qanıyla
Bu "səhər" yoğrulacaq.
Neçə-neçə oğular
Bu gün şəhid olacaq.
Yollar şəhid qanına
Bu səhər boyanacaq.
Analar balasını
Axtarıb tapmayacaq!
Ana-bacı başına
Qara örpək salacaq.
Vətən şəhidlərini
Öz qoynuna olacaq
Vətən mərd oğulların
Bu gün "Şəhid" verəcək.
Bürünüb qərənfilə.
Cənazələr gedəcək,
Xalqım "matəm" edəcək,
Göz yaşları tökəcək.
Şəhidlər qəlbimizdən
Heç vaxt silinməyəcək!
- Vətən, əymə özünü!
Övladların çox mərddir.
Xalqına divan tutan
Qoynundakı namərddir!
Tanı, sən düşmanını,
Vətən, sil göz yaşını!
Xalqım bu gün itirdi,
Mərd bacı qardaşını.





Vətən verdi "Şəhidlər"
Öldü mərdlər, igidlər.
Köçsələr də dünyadan,
Şəhidlər ölməyirlər!
Qəlbimizdə əbədi
Hər an bizimlədirlər!

## Göz yaşı axıtdı, bütün xalqımız

***Neft Akademiyasında şəhid olan gənclərimizə həsr olunub.***

Açılma, ey qanlı səhər, açılma!
Xalqım, bu gün neçə Şəhid verəcək!
Neçə ana Şəhidlik üçün balasın,
Bu gün səhər məktəbə göndərəcək!

Bu gün açılacaq, bu səhəriniz,
Ömrünüzün "son günü" olacaqdır.
Bir qatil, qəflətən atəş açaraq,
Sizin ömrünüzə son qoyacaqdır!

Neçə oğul-qız tədris ocağında,
Namərd gülləsinə tuş gələcəkdir.
Masanın üstündə, kitab-dəftər yox,
"Qoşa qərənfillər" düzüləcəkdir!

Ana balasını axtaracaqdır,
Nalə çəkib, fəryad qoparacaqdır.
Qoşulub ananın bu fəryadına,
Hər kəs onun dərdin ağlayacaqdır!

Bu qanlı Səhəri bütün xalqımız,
Hər zaman yadında saxlayacaqdır!
Bu gün Şəhid olan gənclərimizi
Xalqımız əbədi yaşadacaqdır!

## Toy taxtım qaranlıq məzarım oldu

***Dünyadan nakam köçən gənclərimizə – Şəhidlərə***

Toy taxtım qaranlıq məzarım oldu,
Ölüm məni soyuq məzara saldı.
Bəzəkli xonçalar, ala toy "şamım"
Məzarımın üstündə yandırıldı!

Məzarım üstünə xonça bəzədin,
Məni yox, baş daşımı əzizlədin.
Tapmayıb heç yerdə sən övladını
Soyuq məzarlıqda məni gəzdin!

Məzardan, boylana-boylana qaldım,
Anamdan doymadım, nakam ayrıldım.
Talehim nə üçün belə gətirdi?
Qaranlıq məzarı mən evim sandım!

Yalvarıram, ana tək qoyma məni!
Məzarlıqdan gözlərim görsün səni.
Duyum sənin mən isti nəfəsini
Eşidim ay ana, hər gün səsini!

Məzarlıqdan ruhum görəcək səni,
Laylan ilə oxşa, əzizlə məni.
Hər gün məzarımın üstünə gəlib,
Baş daşıma sürtərsən əllərini!

Sən lay-lay deyərdin mən doğulanda
İndi laylamı de, sən məzarlıqda!
Axtarma ay ana, nakam Balanı
Balan uyuyubdu əbədiyatda!





## Qəhrəmanlar ölməzdir

***Ağdərədə şəhid olan oğullarımızın xatirəsinə***

Ağdərədə şəhid oldu
neçə-neçə oğullar!
Canını fəda etdi,
Vətən yolunda onlar!
Mühasirəyə aldı,
hər tərəfdən düşmənlər!
Xainlər,
qan içənlər!
Özgənin torpağına
hər zaman göz dikənlər!
Bizimlə çörək kəsib,
çörəyi itirənlər!
Üzümüzə güldülər,
bizi əsir etdilər!
Əsir düşdü ərənlər!
namərd düşmən əliylə
bir-bir güllələndilər!
İşgəncəylə öldülər!
Bizim igid ərənlər.
Sözündən dönmədilər,
Torpağı vermədilər!
Namərd düşmən önündə,
heç vaxt əyilmədilər!
Torpaqda can verdilər.
Vətəni bayrağını
öpdülər, And içdilər!
Vətən, torpaq yolunda
Şəhidliyi seçdilər!
İgid qəhrəmanları
Torpaq qoynuna aldı.
Onlara lay-lay çalıb,

ana kimi, oxşadı.
Onların Şəhid adı
Qəlbimizdə yaşadı.
Bu Şəhidliklə onlar
Zirvələrə ucaldı!

## Şəhidlərə həsr olunmuş Bayatılar

*Şəhidlərə həsr edirəm.*

Əzizinəm ağlaram,
Yur-yuvamı ağlaram.
Qərib yerdə can verən,
Mən, balamı ağlaram.

Əzizinəm düşmənə,
Qoy ar olsun düşmənə.
Öldürdüyü balamı
Düşmən, sən tap ver, mənə.

Əzizinəm Vətənə,
Düşmən girmə Vətənə.
Dünya fani dünyadır,
Nə sənə qalar, nə mənə.

Əzizim axtarıram,
Balamı axtarıram.
Namərd düşmən, aman ver
Balamı axtarıram.

Əzizinəm gül bitə,
Bağ-bağçada gül bitə.
Anaya, ağır dərddir.
Bala məzarı itə.





Əzizinəm məzarı,
Balamın yox məzarı.
Balamı tapmamışam
Tapılaydı məzarı.

Əzizim tapmayıram,
Balamı tapmayıram.
Nə məzarın, nə özün
Heç yerdə tapmayıram.

Əzizim yaram sarı,
Məlhəm qoy yaram sarı.
Yaram məni incidir,
Ay ana, yaram sarı.

Əzizinəm öldürdü,
Düşmən səni öldürdü.
Balam al-qan içində
Vətən deyib, can verdi.

Əzizinəm can verir,
Balan ana can verir.
Dodağıma su vurun,
Balan susuz can verir.

Əzizinəm toy eylə,
Ana mənə toy eylə.
Üstümə xonça bəzə,
Məzarımda toy eylə.

Əzizim toy otağı,
Məzarım toy otağı.
Ana sən elə bəzə,
Qoy olsun "Toy otağı".

Əzizim böyüdərsən,
Balamı böyüdərsən.
Bir gün məni soruşsa,
"Şəhid" oldu deyərsən.

Əzizim harayladı,
Çağırdı harayladı,
Namərd düşmən balamın
Qollarını bağladı.

Əzizim ayan oldu.
Yuxumda ayan oldu,
Bala sənin ölümün,
Anana ayan oldu.

Əzizinəm üstümə,
Ay ana, gəl üstümə.
Bir gün torpağım alsan
Sən, səpərsən üstümə.

Əzizinəm qonaq gəl,
Məzarıma qonaq gəl,
Bura mənim evimdir.
Ana hər gün, qonaq gəl.

Əzizinəm ağlaram,
Bala deyib ağlaram.
Balam İtkin düşübdür
Hər kəsdən soraqlaram.

Əzizim - öldürdülər.
Balamı öldürdülər.
Nə ölüsün, nə dirisin
Balamı vermədilər.





## Gəlin və qaynanalara həsr olunub

***Qızlar böyüyüb, quş kimi pərvazlaşıb, bir ocaqdan başqa ocağa gəlin köçürlər. Onlar getdiyi ocaqda qaynataya - Ata, qaynanaya - Ana kimi baxmalıdırlar. İsmətlə, ləyaqətlə öz övladlıq borcunu yerinə yetirməli, valideynlərinin başını uca tutmalıdılar. Getdiyi ocaq da onları övladı kimi qəbul etməlidir.***

Əzizinəm gəlinəm,
Mən bu evdə gəlinəm.
Bu gündən mən anana,
Həm qızam, həm gəlinəm.

Əzizinəm qarşına
Çıxar bir gün qarşına.
Qayınanana can söylə.
Çıxsın bir gün qarşına.

Əzizinəm ana bil,
Qayınanı ana bil,
Axı o da anadır,
Onla danış, onla gül.

Əzizinəm qayınana,
Gəlinə ol sən Ana.
Səni ana tək sevib,
Qoy sənə desin Ana.

Əzizinəm ayırma,
Gəlini qızdan ayırma,
Sən səhvini başa sal,
Hər sözü üzə vurma.

Əzizinəm bağça-bağ
Ətirlidir bağça-bağ.
Qızlar xına yaxarlar,
Hər zaman toydan qabaq.

Əziznəm örpəyi,
Başında var örpəyi.
Gəlinin ismətidir,
Başındakı örpəyi.







# Acılı-şirinli məhəbbət payım

## Bizim də sevginin sonu bu imiş

Bu gün ayrılıram, səninlə gülüm.
Hər zaman çəkəcəm, mən həsrətini.
Heç zaman unuda bilməyəcəyəm,
Sənin, mənə olan məhəbbətini!

Bilirəm, ayrılıq çətindir bizə,
Neyləyək, yolumuz ayrılmalıdır.
Bunu bil sevgilim, sonu həsrətin,
Bir gün şirin bir vüsal olmalıdır!

Yolumuz ayrıldı, nədən bilmirəm?
Bizim də sevginin sonu, bu imiş!
Bilməzdim sevginin, ilk məhəbbətin
Sonu belə həsrət ilə bitrmiş!

## Məhəbbəti bölüşək

Düşünməzdim, məhəbbət
Sən, bu qədər sirlisən.
Hicranın-vüsalınla,
Acılı-şirinlisən.

Ürəklərə girirsən
Orda, yuva qurursan.
Cavan olsun, ya qoca,
Qəlbin ovsunlayırsan.

Məhəbbətin oduna.
Hər kəsi yandırırsan.
Bu odun istisiylə,
Qəlbi odlandırırsan.

Vüsala çatmaq üçün,
"Sevəni" sınayırsan.
Eşqi, ucuz tutanı,
Yarı yolda qoyursan.

Daş qəlbli insanların,
Qəlbinə yol tapırsan.
Ürəklərdən ürəyə,
Daima yol açırsan.

Hər an düşündürürsən
Sən, bütün sevənləri.
Onlara bəxş edirsən,
Yuxusuz gecələri.

Əgər, sevən yatmırsa,
Gecə narahatdırsa,
Sevgilisin anırsa
Demək budur məhəbbət!

Gəlin, beləcə sevək,
Sevgini uca tutaq.
Yalnız bizi sevənlə,
Məhəbbəti bölüşək!

## Dözəcəm ömürlük mən bu hicrana

Sevginlə yaşadım ömrüm uzunu
İsindi ürəyim məhəbbətinlə.
Bilmədim, gün gələr bu eşqin sonu
Dönüb buz bağlayar xəyanətinlə!

İçimdə şaxtalı bir tufan oldu.
Şaxtayla-tufana, dözmədi ürək!
Yaşıl budaq üstə çiçəyim soldu.
Yalançı məhəbbət nəyimə gərək!





Qəlbimdə yarandı sənə nifrətim.
Kaş səni əzəldən heç sevməyəydim.
Saf bir məhəbbətlə döyünən qəlbi,
Sən tək vəfasıza mən veməyəydim!

Get, sən ayrı yaşa, uzaq ol məndən
Ayrıldı yolumuz, bu gündən belə.
Peşiman-peşiman geriyə dönüb.
Göz yaşın axıtma, sən gilə-gilə!

Demə aldanacam, göz yaşlarına.
Mən sənin yalançı ıbaxışlarına
Unut məni, artıq sevmirəm səni
Dözəcəm ömürlük mən bu hicrana!

## Tanrıdan hər kəsin sevgi payı var

Tanrıdan, hər kəsin sevgi payı var,
Tanrı bu payı, hər kəsə ayırar!
Birinə çox, birinə az paylar.
Kimi xoşbəxt olar, kimi ayrılar!

Bəzən sənə, sevgi əlçatmaz olar,
Sevən sevgisinə, bir gün qovuşar!
Sevgi var ki, hər an səni yaşadar,
Sevgi var ki, ömrün boyu ağladar!

Sevgi atəşiylə, səni yandırar,
Sevənlər özünü çox xoşbəxt sanar.
"Yalan sevgi" hər an səni aldadar.
Qəlbində sevgiyə nifrət oyadar!

Saf məhəbbət təmiz olar, pak olar,
Sevən sevgisini hər an qoruyar.
Həyatda sevənlər, həm sevilənlər,
Məhəbbətin nə olduğun anlayar!

Sevən gözlər, hər an xəyala dalar,
Gecə yatmaz, yuxuya həsrət qalar.
Qəlbində "məhəbbət" dərin kök salar,
Ürəklə döyünüb. ürəklə vurar!

## Ağlayıram mən səni, səni unutmaq üçün

Ağlamıram, mən səni geri qaytarmaq üçün
Küsüb tez-tez səninlə yenə barışmaq üçün.
Ağlamıram, qəlbimi mən sənə açmaq üçün
Sənə qovuşmaq üçün, söhbət edib, danışıb,
Halın soruşmaq üçün, ağlayıram, mən səndən
Bil uzaq olmaq üçün bu sevgini qəlbimdən
Əbədi atmaq üçün, ürəyimdə mən sənə,
Səni sediyim qədər, nifrət yaratmaq üçün.
Ağlayıram, mən səni, səni unutmaq üçün!

## Qayıdaq səninlə ötən günlərə

Qaytar sən sevgilim, qaytar geriyə,
Xoşbəxt günlərimi, ilk görüşümü!
Qayıdaq, səninlə ötən günlərə.
Bölüm sənlə yenə, mən sevincimi.

Şərik ol dərdimə, sən sevincimə
Sevginin həsrəti, dolsun qəlbimə.
Gözlərim söyləsin, ürək sözümü,
Baxanda, gözlərin gülüm gözümə.

Yaşayım yenidən mən bu sevgimi,
Unudum, sevgidən doğan dərdimi.
Sev məni, əzizlə, oxşa sevgilim,
Sənlə Qoşa vurum, başa ömrümü.





Sevgidən yaransın, həyatda nə var
Sevənlər, hər zaman vəfalı olar.
Sevgisizi bil, insan çox tez qocalar
Sevgi, insanları hər an yaşadar.

## Bu sevdanı necə deyim bilmirəm!

Məhəbbətin düyün olub, qəlbimdə,
Gözlərin-gözümə yar dikiləndə.
Gülüm hər gün biz üz-üzə gələndə,
Bu sevdanı necə deyim, bilmirəm?

Səni görcək, inankı lal oluram,
Susuram, özümü çox danlayıram.
Sevgimi - deməyə, mən utanıram,
Bu sevdanı necə deyim, bilmirəm?

Düşünürəm. səninlə görüşəcəm,
Sevdiyimi bir gün sənə deyəcəm.
Mən səni oxşayıb əzizləyəcəm,
Bu sevdanı necə deyim bilmirəm?

Xəyallarım sirdaş olubdur mənə,
Röyamda "sevirəm" deyirəm sənə.
Sevgi məlhəmdir, sevib-sevilənə,
Bu sevdanı, necə deyim, bilmirəm?

Gecə-gündüz həsrətini çəkirəm.
Hər gün səni, mən görmək istəyirəm.
Danışırsan, mən səni dinləyirəm,
Bu sevdanı, necə deyim, bilmirəm?

Qəlbim bir yuvadır, eşqin yuvası
Onun təməlini bil, sən qoymusan!

Damla-damla sənə olan sevgidən,
Gör nə boyda, bir yuva yaratmısan!

Sən qurmusan, bu məhəbbət yuvasın.
İndi sağalt, sən məhəbbət yarasın.
Mən səndə tapacam eşqin çarəsin
Bu sevdam necə deyim, bilmirəm?

Bu yuvada təkcə "sən" olacaqsan,
Qəlbimdə. əbədi yaşayacaqsan.
Bir gün. sediyimi anlayacaqsan,
Bu sevdanı, necə deyim, bilmirəm?

**Yanvar 29 2009-cu il**

## Sevin-sevilin qızlar

Sevin-sevilin qızlar
Sevgi şirin şərbətdir.
Hər an sevin, sevilin,
Bu hər kəsə qismətdir!

Sevgi hər an azaddır
Acısı şərbət dadır.
Sevəni xoşbəxt edir,
Sevməyəni aldadır.

Sevgi ətirli güldür.
Tikanlı ələ batır.
Uzun həsrətdən sonra
Hər kəs vüsala çatır.

Sevginin şirinliyi.
Vüsala yetişməkdir





Sevənləri incidən,
İntizardır, həsrətdir!

Gəl, həsrətə son qoyaq
Sevgimizi qoruyaq.
Biz bu gözəl həyatda
Sevə-sevə yaşayaq.

Dünya sevənlərindir.
Sevgi ruhun-qəlbindir
Sevirsənsə, bu dünya
Sanırsanki sənindir!

## Mən səni vəfalı bir yar sanardım

Mən sənlə görüşəndə çoxlu şeir deyərdin.
Mənə olan sevgini şeirlə bildirərdin.
Sən, şair Bəxtiyarın vəfasız insanlara,
"Bir salama dəymədi" şerini söyləyərdin!

Oxuyub qınayardın, sevgidə xəyanəti,
Vəfasız insanlara yağdırardın nifrəti!
Hər şeydən çox sevərdin düzlüyü, həqiqəti.
Qəlbində gəzdirərdin təmiz-saf məhəbbəti!

Deyərdin mən həyatda bil, vəfasız olmaram,
Təkcə səni sevirəm, mən səndən ayrılmaram.
Səndən ayrı düşsəm də, düşün, mən bircə anda
Sənsiz olan həyatı, ömrümə gün sanmaram!

Niyə ayrıldın məndən, üz döndərdin sevginə,
Bilirdin bağlanmışam həyatda yalnız sənə.
Vəfasızlıq eyləyib dönük çıxdın, sən mənə
Kaş ki, aldanmayaydım, mən yalançı eşqinə!

Sanırdım saf eşqinlə, daim yüksəklərdyəm,
Quş kimi qanad açıb uçuram göylərdəyəm.
Mən yelkənli qayığam "sevgi" dəynizindəyəm,
Məni sevən insanın əbədi könlündəyəm.

Düşünməzdim gün gələr, eşqə dönük çıxarsan,
Məni atıb özünə sevgili yar taparsan.
Önündə məhəbbətin bu qədər alçalaraq,
Vəfasızlıq eyləyib bir gün məni atarsan.

## Sevgilim

Bu eşqin həsrəti məni yandırdı.
Ürəyimdə mini-min arzular qaldı.
Görən hicran, ayrılıq nədən oldu?
Yarı yolda yollarımız ayrıldı!

Gözlərim hər yanda axtardı səni
Taleh niyə ayırdı sənlə məni!
Keçdi intizarla, keçdi günlərim
Verdi həyat bizə qəmi-qüsəsni.

Elə sandım qismətim təkcə sənsən
Ayrılsaq da, sən yolumu gözlərsən.
Mənim kimi bu təmiz məhəbbəti
Hər bir zaman qəlbində gizlədərsən.

Bir gün gələr biz yenə görüşərik.
Biz arzuya, yar Kama yetişərik.
Ayrılsaq da. gülüm ayrı qalsaq da
Bu sevgini biz unuda bilmərik.

## Sevən, xəyanət etməz

Hər sevəni eşqə vəfalı sanma,
Vəfasızın xoş dilinə inanma.





Tez-tez sənə xəyanət eyləyənin,
Sən yalançı sevdasına aldanma!

Düşün, sevən heç vaxt xəyanət etməz.
Saf məhəbbət qəlbdə bitməz, tükənməz.
Sevdiyin kəs sənə xəyanət etsə,
Bu qəlbindən bil əbədi silinməz!

Yalan eşqin sonu xəyanət olar,
Xəyanət hər zaman qəlbi yaralar,
Unutsan da bu acı xatirəni,
Qəlbində ocaq tək bil, közü qalar!

Sevgi nədir, sevənlər bunu anlar,
Vəfasızlar məhəbbətin tez danar.
Sevənlər arzuya-kama çatanda,
Həyatda özünü çox xoşbəzxt sanar!

## Sən ötən günlərə heyfslənərsən

Yaradan insanı bir gün qocaldar...
Gənclik ötər. saçın bir gün ağarar.
Gənclik varsa, dövlətin var, varın var.
Qocalanda sənin varın-dövlətin,
Nəvələrin, bir də övladlar olar.

Keçən günlər qəlbində xatırlanar,
Xəyalında, hər kəs keçmişin anar.
Göz önünə gələr, bir-bir canlanar.
Ötən günün, ömür-günün səhifəsi
Qocalanda açılar, varaqlanar!
Olub keçənləri yada salarsan.
Sən həmən an xəyallara dalarsan.
Acısın da şəkər kimi dadarsan.

Xəyalında o anı, yaşayaraq,
Acı göz yaşıyla xatırlayarsan!

Kədərli anın da sevinc bilərsən.
Uşaqlıq çağında deyib-gülərsən.
Görən yenə əvvəlki tək sevərsən?
Görüşünə sən sevdiyin gözəlin
Yenədəmi, sən birinci gedərsən?
Getsən də sən yarının görüşünə,
Onu bil ki, görüşə gecikərsən!

Nə qədər cavanam, sən söyləsəndə,
Ayaq baxmaz qocalanda sözüünə.
Qocalıq insanın qəddini əyər,
Qırış düşər yavaş-yavaş üzünə!
Qara saçın bir gün insan ağ hörər
Qocalarsan, həyat sözünü deyər.
Keçən günlərini yada salanda
Hər kəs, ötən günlərə heyfsilənər.

**2006**

## "Ölməz sevgimiz"

***Gözəl bəstəkarımız Nailə Mirməmmədli və vaxtsız dünyasını dəyişmiş həyat yoldaşı Hikmət Mirməmmədliyə həsr olunub.***

Biz xoşbəxt yaşayırdıq bütün sevənlər kimi
Ölüm aldı əlimdən həyatda sevincimi.
Vaxtsız-vədəsiz gəlib, döydü bir gün qapımı
Amansız ölüm vaxtsız apardı sevgilimi!

Arzumuz gül açmamış xəzan oldu, saraldı
Xoşbəxt günlərimizin ömrü çox qısa oldu.







Sənin də talehinə nakam ölüm yazıldı
Neçə bəstələnməmiş mahnın yarımçıq qaldı!

Küskün oldum həyatdan sənsiz mən oldum tənha
Sənlə keçən günlərim geri dönməz bir daha.
Sən yoxsan, sənsiz həyat mənimçün zülmət gecə,
Ümidsüz göz açıram, hər açılan sabaha!

Səni hər an kölgə tək mən yanımda sanıram
Dost-tanış arasında hey səni arayıram.
Nə qədər axtarsam da heç yerdə tapmayıram
Yalqız qalıb həyatda mən sənsiz yaşayıram!

Hər gün səni yuxumda, mən röyamda görürəm
Səninlə söhbət edib, danışıram-gülürəm.
Sevincli anlarımı yenə sənlə bölürəm,
Mən yuxu olduğunu ayılanda bilirəm!

Kaş ki, bu yuxularım həyatda çin olaydı.
Keçən xoş günlərimiz geriyə qayıdaydı.
Yenə xoşbəxt olaydıq, biz xoşbəxt yaşayaydıq.
Amansız ölüm bizi vaxtsız ayırmayaydı!

## Sevirsənsə

Sevgi iki qəlbin çırpıntısıdır
Sevən gözlər qəlblərin aynasıdır.
Əgər sevirsənsə, bil gözlərindən,
Baxan hər kəs, sevdanı duyasıdır!

Sevənlər, hicranı-həsrəti dadar
"Ayrılıq" sevən qəlbləri ağladar.
Sevən ürək hər an narahat olar
Saf məhəbbət hər bir dərdi sağaldar.

Sən sevginin qoynuna atılarsan,
Sevgi dənizində xoşbəxt olarsan.
Sevgilinlə, sevə-sevə bir yerdə,
Məhəbbətlə, sevgiylə yaşayarsan!

**03.02.2010.**

## Sən mənim eşqimə layiq deyilsən

Dedim bir gün sevgilim bəlkə geri dönərsən!
Həsrətlə görüşümü, yolumu gözləyərsən.
Darıxıb mənim üçün, görüşümə gələrsən.
Yenə görüş yerində, mənimlə görüşərsən!

Darıxmışam sənin üçün, əvvəlki tək deyərsən.
Sevgi dolu gözünü, gözlərimə dikərsən.
Danışaram, sevgilim sən məni dinləyərsən.
Tutub sən əllərimdən, mənlə Qoşa gəzərsən!





Sanırdım ki, sən məni, yalnız məni sevərsən!
Düşünməzdim qəlbində başqasın gəzdirirsən!
Sən demə ki, məni yox bir özgəsin sevirsən.
Bu təmiz eşqimizə, sən xəyanət edirsən!

Hər gün aldadıb məni sevdiyini deyirsən
Yalançı məhəbbətlə. sən qəlbimə girirsən.
"Sevirəm" kəlməsini hər kəsə söyləirsən
Sən mənim bu eşqimə, bil ki, layiq deyilsən!

Mən bu pak məhəbbəti, sənə layiq sanmaram!
Qəlbimdə mən əbədi, səni heç vaxt anmaram.
Sənin tək vəfasızın qarşısında bunu bil
Eşqimi ucuz tutub, heç zaman alçalmaram!

## Ağlama, geriyə qaytarmaq üçün

Ağlama geriyə qaytarmaq üçün,
Bir daha geriyə dönməyəcəyəm!
Ağlama, qəlbimi yumşaltmaq üçün,
Bil, səni bir daha sevməyəcəyəm!

Sənin görüşünə gəlməyəcəyəm,
Yuxuna heç zaman girməyəcəyəm,
Mənim bu saf, təmiz məhəbbətimə
Səni, heç vaxt layiq bilməyəcəyə m!

Bu sevginin acısın dadacağaM,
Həyatda sevgisiz yaşayacağam,
Bu yalançı eşqə aldandığım üçün
Qəlbimdə hər zaman ağlayacağam!

Yuxu kimi xəyalında qalacam,
Sənin üçün bir əl çatmaz olacam!
Düşünməki mən səni axtaracam,
Bil səni əbədi unudacağam!

## Gözlərin eylədi eşqini bəyan

Ağladın, göz yaşın kövrəltdi məni
Qarışdı göz yaşın göz yaşlarıma.
Gülüm ovsunladı gözlərin məni,
Dikildi, baxışın baxışlarıma!

Gözlərin, eylədi eşqini bəyan,
Alışdı ürəyim məhəbbətindən.
Əlǝlrim toxundu əlinə bir an,
Titrədi eşqimin hərarətindən.

Gizlədə bilmədim mən də sevgimi
Axtardı hər yerdə gözlərim səni.
Verdim gülüm sənə sevən qəlbimi,
Unuda bilərmi, sevən-sevəni!

## Çalış gəncliyinin qədrin biləsən

Sənin ötən gəncliyin,
Solmuş gülə bənzəyər
Əsən külək bu gülü,
Hər yana səpələyər.
Bu qurumuş çiçəklər
Budağından tökülər.
Əlinə çiçək deyil.
Gülün ləçəyi düşər.
Açılanda çiçəklər,
Onu dərib, üzərlər.
Sevənlər bir-birinə,
Gül-çiçək göndərərlər.
Gün gələr, bu çiçəklər
Saralar, olar xəzəl.
Bu ətirli çiçəklər.
Ayaq altda əzilər.





Gəncliyində belədir
Onu verirsən hədər,
Düşünmürsən ki, bir gün
Gənclik əlindən gedər!
Yada düşər o günlər.
Qəlbi bürüyər kədər...

Bir gün gələr, sən qara
Saçını ağ hörərsən.
Həyatın şirinliyin
Sən, gənclikdə görərsən!
O günlərə dönərsən,
Tənhalıqdan bezərsən.
Göz yaşını süzərsən.
Hər zaman düşünərsən
Sən qocalıq yükünü
Çiynində gəzdirərsən
Sən ömür səhifəsin
Açıb vərəqləyirsən.
Ötən günün qədrini
Qocalıqda bilirsən!

## Sevgini gözlər deyir

Nə vaxtsa görüşərik
Sevgilim düşünərdik.
Biz bu görüş gününü
Həsrətlə gözləyərdik.

Hər zaman bu sevgini
Biz əlçatmaz bilərdik.
Ayrılsaq da sevgilim
Gizli-gizli sevərdik.

İllər, aylar ötüşdü.
Yenə sənlə görüşdük.

Əvvəlki tək səninlə
Danışıb söhbət etdik.

Sevgi dolu gözlərin
Dikildi gözlərimə.
Əlini toxundurdun
Bir anlığa əlimə.

Əlinin hərarəti,
Sanki hopdu qəlbimə.
Uzun həsrətdən sonra
Qovuşdum mən sevgimə.

Dedin bilirəm gülüm
Sən də məni sevirsən.
Qəlbində sevmir məni
Bəlkə də, düşünürsən!

Yox, yalandır bu sözlər,
Sevgini deyir gözlər.
Sevənlər məhəbbətin
Deməz, qəlbində gizlər!

Sevgilini görəndə,
Dil-dodaq kilidlənər.
Gözlərinə baxanda
Sevgi gözdən bilinər!

Sevənlər ayrılığa,
Həsrətə dözə bilməz.
Əsl sevgi, məhəbbət
Ürəklərdən silinməz!





## Bu sevgini unutmayaq

Uçub, duurnalar tək, uzağa getdin.
Yox olub, bir anlıq gözümdən itdin.
Qoşulub sən durna qatarlarına,
Bəlkə də, səmadan, məni seyr etdin!

Hicranın yükünü, mənə çəkdirdin.
Eşqinlə qəlbimdə yuva tikdirdin.
Sən sevən qəlbimi atəşə atıb,
Ayrıldın, aradan bir sərhəd çəkdin!

Getdin uzaqlara ayrı yaşadın.
Sən qəlbimi özün ilə apardın.
Mənə bir dünya "sevgi" bağışlayıb,
Bil, ruhumu sən canımdan qopardın!

Bülbül kimi, gülün üstünə qondum,
Şaxta vurdu, soyuq-sazaqda dondum!
Sənsizliyə, bu hicrana dözməyib.
Susuz qalan ağac kimi tez soldum!

Ayrılsaq da biz sevdik qəlbimizdə
Günah nə səndədir, nədəki məndə!
Nə sən məni qına, nə də mən səni,
Günah bu amansız "talehimizdə"!

Gəl, talehlə-qismət ilə, barışaq!
Bu sevgini, heç zaman unutmayaq.
Biri-birimizdən düşsək də uzaq,
Hər an sevgimizi, Qoşa yaşadaq!

## *Poeziya aləmi*

### Mən dənizəm, Ləpə sənsən

Gah kükrəyən, gah da coşan
Ləpələrlə pıçıldaşan
"Dəniz - mənəm"
Telinə sığal çəkdiyim
Hər cür nazına dözdüyüm
Sinəmdəki "Ləpə" sənsən.
Mən yelkənli bir qayığam
sənsə mənim
"Yelkənimsən".
Dağ döşündə bitən güləm,
Sən açılan çiçəyimsən.
Mən bülbüləm nəğmə deyən.
Dilimdəki nəğmə
"Sənsən"
Hara getsəm, harda olsam,
Sevincimsən-kədərimsən!
Məhəbbətim, saf eşqimsən!







Bilirəm ki, sən də məni
sevdiyim qədər
sevirsən!
Söylə gülüm, niyə məni
Sən bu qədər incidirsən?
Görüşümə gəlməyirsən?
Yalız xəyala dönürsən!
Sən hicranın ürəyimə
tikan olub batdığını,
bilməyirsən?
Sən geriyə dönməyirsən.
Qəm-qüssəyə bələnirəm!
Yenə sənin yollarını,
Gülüm hər gün gözləyirəm.
Yalız səni düşünürəm.
Bu hicrana-ayrılığa,
Artıq dözə bilməyirəm!
Qayıdıram sənlə ötən
Aylarıma-illərimə!
Qayıt gülüm, sevinc gətir
Sən ömrümə!
Əlini ver əlılrimə
Son qoyulsun, sənsiz keçən
Yuxusuz gecələrimə.
Sənini sevgi dolu gözün
Baxsın gülüm
gözlərimə!

### Yağan yağış

Yağış yağır!
narın-narın yağan yağış
döyür, gülüm pəncərəmi!
Bürüyür, hicran qəlbimi.

Sevinirəm,
Pəncərənin qarşısına
Yüyürürəm!
Sanıram ki, bəlkə
Sənsən!
Gülüm, mən səni görmürəm...
Yağış səsin eşidirəm,
Sənsiz geriyə dönürəm.
Darıxıram, düşünürəm.
Tənhalıqdan üşüyürəm!
Səni görmək istəyirəm.
Görüşünü gözləyirəm,
Səninçün qəribsəyirəm!
Ayrıvlığa - bu hicrana.
İnan dözə bilməyirəm!
Axan göz yaşımιgülüm.
Yağışdan da gizlədirəm.
Səndən olan incikliyi,
Yağışa gileylənirəm!
Mən yağışa söyləyirəm
Məndən sənə xəbər desin!
Döyüb sənin pəncəorəni
Yarın darıxır söyləsin
Sənlə məni görüşdürsün!

## Mənim ilə qalasan

İstəyirəm gül olasan,
bülbül olub üstə qonum.
İstəyirəm şam olasan,
oduna alışıb-yanım.
İstəyirəm külək olum,
saçlarını mən darayım.
Kölgən olum hər an sənin,
yanında addımlayım!





İstəyirəm çay olasan.
sinəm üstə axasan.
Yağış olub. yağasan,
şimşək olub çaxasan,
Sən fəryad qoparasan
sevgilini tapasan.
yanına çağırasan,
qollarına alasan.
Günəş olub həyatıma
hər gün işıq salasan.
Mənimlə qovuşasan.
Sən əbədi "sevjgilim"
Mənim ilə qalasan...

## Çünki onu sevirsən

Gül bağına girirsən
Çiçək dərib üzürsən.
Qızıl gülün üstündə
Çoxlu tikan görürsən.
Tikan batsa da ələ,
Sən bu gülü dərirsən.
Tikan səni incidir
Bu ağrıya dözürsən.
Bu çiçəyi sevdiyin
Bir insana verirsən.
Çünki, onu sevirsən!
Məhəbbət də belədir
Gülün tikanı kimi
Vüsala çatmaq üçün
Həsrət səni incidir
Uzun çəkən ayrılıq,
Hər an qəlbini didir.
Sevginin şirinliyin

Hər zaman dadmaq üçün,
Daima çarpışırsan!
Sevgilini görməyin,
Həsrətində olursan.
Xəyallarla hər gecə,
Sən üz-üzə qalırsan.
Ürəyini sən yanar
Ulduzlara açırsan.
Tənhalıqdan qaçırsan
Hər əzaba dözürsən.
Çünki onu sevirsən!
Sən bu uzun gecədə,
Məhəbbətin-sevginin
Oduna bələnirsən.
Sən həsrətin yükünü.
Yuxusuz gecələrdə,
O döyünən qəlbində,
Hər zaman gəzdirirsən.
Çünki, onu sevirsən!
Əlin çatmır əlinə,
Gözün baxmır yarının
O gülər gözlərinə.
Döhzməyib həsrətinə.
Göz yaşları tökürsən.
Gecə-gündüz qəlbində
Sən onu düşünürsən!
Çünki, onu sevirsən!
Ayrılıq istəmirsən,
Yolunu gözləyirsən.
Vüsala çatmaq üçün,
Hər zaman tələsirsən
Çünki, onu sevirsən!





## Sevgimizi yaşadaq

Ötdü, ömür qatarı
Tanrı bizi ayırdı.
Gəncliyimi apardı,
Səni məndən qopardı,
Bu sevən qəlbimizi,
Qara buludlar aldı.
O həyat eşqimizi,
Gülən gözlərimizi,
Bir daha güldürmədi.
Bizə rəhmi gəlmədi,
Səni məndən ayırdı!
Susdu dodaqlarımız,
Uzaq düşdü yolumuz.
Ötdü illər, fəsillər,
Ayrı-ayrı yaşadıq.
Bu qatarı hər zaman
Qəlbimizdə daşladıq.
Qırılmadı ümüdlər,
Bu ümüdlə yaşadıq.
Biz vüsala çatmağı,
Hər zaman arzuladıq
Gözlədik bu qatarı!
Düşündük bir gün gələr,
Bu qatar, geri dönər.
Dönər o bizə sarı,
Olsaq da qoca qarı,
Ömür olsa da yarı
Bizi ayıran qatar
Döndü, qayıtdı geri!
Biz onu qarşıladıq.
Şirin vüsala çatıb,
"Sevgimizi yaşadıq"!

**20 noyabr**

## Şirin xəyala dönmüşəm

İndii artıq sənin üçün
Şirin xəyala dönmüşəm!
Həyatında mən parlayan,
ulduz kimi, tez sönmüşəm.
Yalnız sənin xəyalında,
bir röyaya çevrilmişəm.
Yuxularına gəlmişəm,
Yenə, sənlə görüşmüşəm.
Əhdi-peyman eyləmişəm.
Yuxuda da, sənə gülüm,
tənhalıqdan bezdiyimi.
yana-yana söyləmişəm!
Ağlamışam, bu saf eşqi
Yalnız təsəlli bilmişəm.
Talehimdən incimişəm
həsrətini çox çəkmişəm.
Ay rılığa mən dözməyib,
acı göz yaşı tökmüşəm.
Yenə sənin yollarını
inan, hər gün gözləmişəm.
Səndən uzaqda olsam da,
Qəlbimdə bil, təkcə səni
Yalnız mən səni Sevmişəm!

## Amansız taleh

***Bir qadının acı taleyinə həsr olunub***
***(danışdıqlarından)***

Gənc bir oğlan ilə qız,
Bir-birini sevdilər.
Xoşbəxtliyi həyatda
Bir-birində gördülər!





Hər zaman görüşdülər,
Sevindilər, güldülər.
Sevincli anlarını,
Görəndə bölüşdülər.

Bir gün iki sevgili,
Bir qərara gəldilər.
İki gənc bir-biriylə,
Toy qurub evləndilər.

Həyatda hər kəs kimi
Onlar xoşbəxt oldular!
Gün gəldi bu ailədə,
Körpələr doğuldular!

Uşaq məktəbə getdi
Ata-Ana sevindi.
Kədər, xoşbəxt ailənin
Bir gün qapısın döydü!

Çox da uzun sürmədi,
Onların bu sevinci.
Ayırdı bir-birindən
Taleh, bu iki gənci!

Gənc ana zülmə dözdü
Həyatından əl üzdü.
Övladlarının gözü,
Hər gün "Atanı" gəzdi!

Min cür çətinlik ilə.
Övladını böyütdü.
Ana gənc yaşlarında,
Saçlarını ağ etdi!

Namusla, qeyrət ilə,
Balasını saxladı.
Dözməyib çətinliyə,
Gizli-gizli ağladı.

Qorudu bu gənc qadın,
Namusla təmiz adın
O sərt qanunlarını
Yaşadı bu həyatın.

Həyatda yalqız qaldı,
Qəlbi kədərlə doldu.
Məhəbbəti qəlbində,
Sevə-sevə qocaldı.

## "Sevgi unudulmur"

### *Lirik poema*

Bir gün yolla, gedirdim, qəflətən səni gördüm!
Gözümə inanmadım, bir an, ayaq saxladım.
Ayaqlarım tutuldu, dilim, sanki lal oldu.
Səni gördüm nədənsə, bilmədim gözüm doldu.
Sanki möcüzə idi mənim səni görməyim.
Sənə bir təsadüfdən, sevgilim rast gəlməyim!
Bəlkə də bu gördüyüm, heç sevgilim deyildi?
Gördyüym, həmən adam ona çox bənzəyirdi...
Yox, yalan ola bilməz, mənim zənnim heç zaman,
Məni aldada bilməz!
Gözümə inanmadım, ötüb keçdin yanımdan.
Qəlbim yaman göynədi, qəmli baxışlarından.
Donmuşdu baxışların, solmuşdu yanaqların!
Yenə də yanındaydıq, biz o qoşa çinarın.
Biz çinarın altında yenə üz-üzə gəldik!
O anı xatırladım. şirin xəyala daldım...





Oturardıq bir yerdə, bu çinarın altında,
Sənlə deyib-gülərdik, necə də sevinərdik.
Bu yolla hər gün belə ikimiz yol gedərdik.
Bir gün görüşməyəndə, həmən an inciyərdik.
Kədərli-xoş anları bir yerdə bölüşərdik!
Bir gün necə oldusa, dərsə kədərli gəldin.
Nə danışıb, nə də güldün, məni görüb gizləndin.
Soruuşdum gülüm səndən, nədən kədərlənmisən?
Yoxsa, məni sevmirsən?
Kim dəyibdir qəlbinə,
Kim nə söyləyib sənə?
De, ürəyim darıxdı!
Hıçqıraraq ağladın, sən boynuma sarıldın!
Sirrini, mənə açdın!
Dedin:
Zəng eləyiblər ondan əl çək, deyiblər!
Onu nişanlamışıq, bir varlı qız almışıq.
Mən də baş üstə deyib, gəlib sənə söylədim
Mən xeyli əsəbləşdim evdən çıxmaq istədim
Səni sevirəm gülüm, mənimlə gedək, dedim
Gəl gedək, uzaqlara, bu dərs olsun onlara!
İçində ağlasanda, sən alışıb-yansanda
Dedin: bəsdir, Ayrılaq!
Bu "nakam məhəbbəti" bu gündən sona vuraq!
Dözəcəyəm bu dərdə, yaşat məni qəlbində.
Yaşat hər an, hər saat, bu təmiz məhəbbəti!
Çəksəkdə bu həsrəti,
Qəlbimizdə ucaldaq!
bu gündən etibarən, biz bir dost kimi qalaq!
Məni. çox incitdilər - Ondan əl çək dedilər!
Sevmədiyim bir qızla, mənə nişan etdilər!
Varına aldandılar.
O gündən bil, qəlbimi, didib-parçaladılar...
Taleh belə gətirdi, - gülüm, səni itirdim!

Həsrətinlə yaşadım!
səni yanımda sandım.
Gözüm səni aradı, qəlbim od tutub yandı.
Səni çox soraqladım,
"Sənsizləşib" ağladım.
Biz, beləcə ayrıldıq, vüsala yetişmədik.
Sevginin şirinliyin gülüm, dada bilmədik.
Hər zaman qəlbimizdə, həsrət yükü gəzdirdik.
Bu "nakam məhəbbəti" yalnız təskinlik bildik!
İllər, aylar ötüşdü.
- Qara saça dən düşdü!
- Sevgi unudulmadı, - Ürəklərdə yaşadı!
Vüsala çatmaq üçün hər bir zaman tələsdik.
Nə vaxtsa, görüşərik biz, bu anı gözlədik.
Bir gün üz-üzə gəldik! Mən səni harayladım,
Ötüb-keçdin yanımdan,
Arxanca çox boylandım.
Dönüb arxaya baxdın.
Sən qəlbimə od yaxdın
Sevgi dolu baxışla, gözündən yaş axıtdın.
Bil ki, məni yaşatdın, sən məni də, ağlatdın!
Sevgi daim yaşayır, sevən bunu anlayır.
Cavan ol sən, ya qoca sevgi unudulmayır!

## Səni sevdim

**(həyat yoldaşıma həsr edirəm)**

İllər boyu xəyalımda, mən röyamda
Saf məhəbbət həsrətiylə yaşamışam!
Qəlbimdəki bu boş yerə,
Heç kəsi buraxmamışam.
Ürəyimdə bu sevgini
Qoruyaraq saxlamışam!
Düşünmüşəm gün gələcək,
Mənim təmiz, saf eşqimə,





Qiymət verən, məni sevən,
Məhəbbətin qədrin bilən,
Sevgini dəyərləndirən,
Sevgisiylə ürəyimdə,
Daim mənim yer eyləyən,
Bir kəs bir gün rast gələcək özü mənə!
Arayacaq-axtaracaq
Gün gələcək, bu məhəbbət
Bu sevgi məni tapacaq.
Eşqimi, uca tutacaq.
Mənim təmiz məhəbbətim
Ona bir dayaq olacaq.
Biz sevib-seviləcəyik.
Leyli kimi, Məcnun kimi.
Əsli kimi, Kərəm kimi.
Dildən-dilə düşəcəyik
Ölənədək sevəcəyik!
İllər ötdü, aylar keçdi...
Mənim şirin xəyallarım
Yuxularım, röyalarım,
Döndü bir gün həqiqətə!
Döndü bizim dostluğumuz,
Çevrildi pak məhəbbətə!
Bir gün gəldi qəlbimdəki
Məhəbbətim məni tapdı.
Ürəyimdə yer eylədi.
Ürəyini bir gün açıb,
Mənə dedi, məni sevdi
Mənə sevgisin bildirdi.
Həyatının mənasını
Məndə gördü.
Sevən qəlbin mənə verdi.
Qəlbimdəki bu boş yerə.
Sevgisiylə özü girdi
Çünki, mənim bu sevgimə,
Həmən adam layiq idi!

**12.XII.2009**

# Qəzəllər

## Ulu Tanrım



Ulu Tanrım sənin hər vaxt gecə-gündüz qulunam!
Zikr edib, namaz qılanda hər şeyi unuduram.

Haliyəm qüdrətinə, ey məni xəlq eyləyənim,
Bəndənin hər əməlin, düzün-əyrisin görənim.

Haqq-ədalət sevənim, bizə düz yol gösətərənim,
Bəndəyə ruzi verib, dərdə əlac eyləyənim.

Rəhmdilsən, sən Adilsən, bizləri çox sevirsən.
Hər kəsin ümid yeri, Tanrı hər şeyə qadirsən!

Bəndəni bağışlayıb, tez günahından keçirsən,
Məzluma əl tutanı, sən "mömün" bəndən seçirsən.





Bizi xəlq eyləmisən, "Qurani-Kərim" vermisən.
Mömin insanlar üçün İslam Dinin göndərmisən.

Hər bir ayəndə bizi mömünliyə səsləmisən,
Düzgün yol göstərmisən, əyrini-düzdən seçmisən.

Nə qədər ömür verərsən, sənə səcdə edərik,
Hər zaman zülm edənə, kafirə qalib gələrik.

Biz ümid bəsləyirik, ömrü boyu Tanrı sənə
Dayaq ol ey Ulu Tanrım yaratdığın bəndənə!

## Vətən bizi haraylayır, igidlərim-ərənlərim

Önünüdə diz çökürəm, od içində yanan torpaq
Olmusan, viran yurdum, düşmənlər əlində, dustaq.

Sinəndə qəm-qüssədən, əriyir sanki uca dağ,
Quşlar da nəğmə demir, sönübdür evlərdə çıraq.

Əsir düşübdür elin, solubdur gülün-çiçəyin,
Elinlə çörək kəsən, sonunda olub düşmənin.

Gözündən gəlsin görüm, verdiyin duzun-çörəyin,
Qovacaq namərdləri, igidlərin-ərlərin.

Ağlama, sil göz yaşın, arxalan igidlərinə.
"Türkdür" mənim millətim, diz çökdürər düşməninə.

Bir qarış torpağı da, biz verməm yad əllərə,
mənfur düşmən ayağı, dəysə də bizim yerlərə.

Qoymarıq sinən üstə vətən gəzsin, düşmən-yağı
Gün gələr azad olar, yenə Qarabağ torpağı!

## Gözləmə sən vəfasız insanlardan eşqə vəfa

Gözləmə sən vəfasız insanlardan eşqə vəfa
Bivəfa yarın yolunda çəkmə sən heç vaxt cəfa.

Əymə sən qürurunu, sevmə səni sevməyəni,
Bil ki, başqasın sevir, vardır onun gözləyəni.

Vəfasız insanlara açma heç zaman qəlbini,
Sevgisi yoxsa sənə, bil, atacaq bir gün səni.

Səni sevməyən kəsdən sənə olmaz, heç zaman yar
Qəlbini ver o kəsə, olsun o, sənə vəfadar.

Gündə bir eşq yaşayar, hər bir zaman vəfasızlar
Taparlar tez bir zamanda özünə bil məşuqlar.

Yadda saxla, sən bunu zər qədrini, zərgər bilər
Sevginin qədrin bilən həm sevər, həm də sevilər.

Bir var ki, vəfasızın eşqi oduna yanasan
Görməyəndə sən vəfa, alışasan-odlanasan.

Sən sevən kəsi axtar, xoşbəxt yaşa, tap səadət,
Vəfalı yardan görərsən, sən ülvi pak məhəbbət.

Düşün bunu həyatın çox enişli yoları var
Gün gələr, həyat səni çətində, darda sınayar.

Elə yar seç ki sənə çətin gündə dayaq olar
Çətinə, dara düşəndə hər an yanında qalar.

Bil ki, sevgisiz olan ailə gün gələr, dağılar
Sevgidən təməl daşı olan ailə, xoşbəxt olar!





## Məhəbəbtəl döyünür şairlərin ürəyi

Məhəbbətlə

*(Mənsur şeir)*

Şair yaşaya bilməz, heç vaxt xoşbəxt görünməz,
Sevgisiz üzü gülməz, şair ilhama gəlməz, hər
kəlməni, hər sözü qələmə ala bilməz.



Məhəbəbt olmayanda!
Məhəbbətlə döyünür şairlərin ürəyi! Vətənə-xalqa
Sevgi, qoynunda boy atdığı "Ana torpağa" sevgi.
Onu duyub, anlaya, eşqinə sadiq olan, kədərli
- xoş anında daim yanında qalan, sevgiyə
arxalanan vəfalı bir insanın məhəbəbti yaşadır.
Yaşadır şairləri!

Şair bu sevgi ilə daim yazır, yaradır,
Xalqı xoşbəxt olanda, şair də xoşbəxt olur!
Qəlbi bulud tək dolur, kədərli anlarında
O, yazdıqca düşünür, hər zaman xəyalında.
Yazdığı hər kəlməni yaşayır, həmin anda

Hər kəsin dərdin duyur, gözlərinə baxanda
Şairlər xoşbəxt olur, hər kəs xoşbəxt olanda!

## Tanrı bağışla məni, keç günahımdan

*M.Ə.Sabir sayağı satira*

Yığışıb dost-tanış ilə hər gün sağlıq deyirəm,
Araqdır yaxın dostum, mən namazı neyləyirəm?

Fani dünyadır bu dünya, qalacaq "kef" adama,
Nə qədər ömrüm varsa, mən də, bu cür kef edirəm!

Gecələr yalvarıram, mən önündə diz çökürəm,
Ulu pərvərdigarım keç günahımdan içirəm!

Namazı yox, arağı, eyşi-işrəti seçirəm,
Dost-tanış inciməsin, onlardan keçə bilmirəm.

İndi mən cavanları düz yola aaprmalıyam,
Dini təbliğ eyləyib, mən hər kəsə yaymalıyam.

Diz çöküb, Tanrı önündə, mən namaz qılmalıyam
Qurandan gözəl ayə, surələr oxumalıyam.

Yalvarıb mən Allaha, haqq yolunu tutmalıyam,
Atıb eyşi-işrəti, düz yola qayıtmalıyam.

Neyləyim, namaz qılsam, mən arağı atmalıyaym,
Mənə savğlıq söyləyən, dostları unutmalıyam!

Gün gələr, mən də bir gün qayıdaram "haqq yoluna"
Hər gün namaz qılaram, dönərəm sənin quluna.

Sənə şükr eyləyərəm, tövbə edib, And içərəm,
Dostlarla içməyə yox, namaz qılmağa gedərəm!





# Ana, bacı və qardaş haqqında

## Köç gedir, əbədi bir Ana köçü

Köç gedir, əbədi bir ana köçü,
Bir daha o geri dönməyəcəkdir.
Yolda qalacaqdır ağlar gözümüz,
Ananı bir daha görməyəcəkdir!

Sığal çəkməyəcək əli telimə,
Əli dəyməyəcək bir də əlimə.
Görən neyniyəcəm, ay ana sənsiz?
Hər dəfə düşəndə, mənim könlümə!

Qapı açılanda gülüb üzümə,
Ana, məni de kim, qarşılayacaq?
Balam gəlib deyə, öpüb üzümdən,
Darıxıb, boynuma kim sarılacaq?

Baxıb gizli-gizli ağ tellərimə,
Ağaran telimi kim oxşayacaq?
Kədərli günümdə, ay ana mənə
Sənin kimi, de kim dayaq olacaq?

Hər dəfə yolumu kim gözləyəcək?
Gələndə, qarşıma kim yüyürəcək?
Ay bala, sənin üçün narahat idim
Bu sözləri mənə, kim söyləyəcək?

Əbədi dünyaya yumdun gözünü,
Son dəfə görəcəm bu gün üzünü.
"Vida" günü Ana de, son sözünü
Aparırlar, ay Ana "Cənazəni".

Heç vaxt qoymazdın, ağlasın gözlərim
İndi gəl, sil, ana, ağlar gözümü!
Qoymazdın kədərli keçsin günlərim
Qayıt, ana güldür qəmli üzümü!

Sənsiz söylə, necə yaşayacağam?
Ağlar gözlə, səni axtaracağam.
Ay ana həyatda mən tənha qalıb,
Axtarsam da, səni tapmayacağam!

Bu dünya hər kəsə bir pənəcərədir.
Sən getdiyin səfər, uzaq səfərdir!
Bilirəm ki, mənim anam bir daha
Bu səfərdən, geri dönməyəcəkdir!

**28. 12. 2009.**

## Yaman dərddir sıxır səni qocalıq

Ömür keçir, gün keçir qocalırsan.
Gənclik illərnidən uzaqlaşırsan.
Diş tökülür, saç ağarır, yaş ötür,
Oğula-uşağa möhtac qalırsan!

Hər bir sözdən, qəlbində inciyirsən.
Tənhalıqdan, giley-güzar edirsən,
Danışanda, sən tez-tez kövrəlirsən,
Yaman dərddir, sıxır səni qocalıq!

Yol gedəndə yorulub, dayanırsan.
Bəzən olur, ələ əsa alırsan.
Qocalıqdan bezirsən-usanırsan,
Yaman dərddir, sıxır səni qocalıq!

İllər ötür, gəlir bu ahıl yaşı,
İtirirsən bir-bir dostu. tanışı.





Görməyəndə, kövrəlib, ağlayırsan.
Ananı-atanı, bacı-qardaşı!

Bu dünyanı görə-görə gəlirsən.
Ölümdür hər kəsin sonu bilirsən.
Bir gün sən də "son məzara" gedirsən,
Yaman dərddir, sıxır səni qocalıq!

## Atalar

Ana tək əzizdir hər birimizə,
Zəhmətkeş, qayğıkeş, əziz Atalar.
Onlar, hər an dayaq dururlar bizə,
Övladın, ailənin "Tacı" Atalar!

Hər zaman övlada nəsihət edər,
Doğru, düz yol göstərər Atalar.
Bizi, hər bir arzumuza yetirər,
Halal zəhmətlə böyüdər, Atalar!

Onlar bizə həsr eyləyər ömrünü,
Övladını xoşbəxt edər, Atalar.
Bizimlə bölüşərək sevincini,
Kədərin, bizdən gizlədər, Atalar!

Namusunu, hər şeydən üstün tutar
Dağ vüqarlı, mərd qürurlu Atalar.
Neçə igid, qəhrəmanlar yetirər,
Vətən üçün "Şəhid" verər Atalar!

Mərdlik ilə çətinliyə dözərlər.
Əyilməzlər, bir kimsəyə, Atalar.
Ailəsini, vətənini sevərlər,
Xoş günümüz, sevincimiz Atalar!

## Ala gözlü anama mənim

Düşünməki ağarıb, ana qara tellərin
Seçilmirsən içindən, ay ana, gözəllərin.
Baxışın həmən baxış, duruşun həmən duruş,
Təkcə saçın ağarıb, gözəlliyin yerində,
Əvvəlki tək ay Ana, gənclik yenə qəlbində.
Saçların ağarsa da, ana yenə gözəlsən.
Sən ala gözlərinlə, dənizə bənzəyirsən.
Mavi gözlü dənizə baxanda, düşünürəm?!
Anamın gözlərinə, necə bənzəyir dəniz.
Dəniz üstə çırpılan ləpələr, ağ saçındır.
Necə gözəllik verir. ağ ləpələr dənizə
Sənin də ağ saçların mavi gözlü dəniz tək
Mənim ala göz anam, gözəllik verir sənə
Saçların ağarsa da, gözəlsən ana yenə!

## Qoşadır məzarınız

**Əzizim olan Məleykə xanım və qardaşı
Məmmədxanın xatirəsinə**

Bu gün acı bir xəbər
Məni yaman kövrəltdi.
Bütün kənd ölümünə.
Acı göz yaşı tökdü!

Eşitdim ölümünü,
Gözümə inanmadım.
Bu xəbəri qəldimdə
Bacı mən yalan sandım!

Kənd sənə yas saxladı,
Hər kəs səni ağladı.
Övladların həyatda,
Ay bacı. sənsiz qaldı!





Nakam köçdün dünyadan,
Doymadın övladlardan.
Ana intizar getdin,
Çox sevdiyin oğuldan.

Oğul toyu görmədin,
Ona nişan vermədin.
Sən istəkli Balana,
Bir gəlin gətirmədin.

Övladının toyunda
Sən qol açıb süzmədin.
Bəzəkli xonçaları,
Əlinə götürmədin!

Erkən qardaş itirdin,
Sən bu dərdə dözmədin.
Yanına gələcəyəm,
Bir gün mən də, söylədin!

Ölümün billə-bilə,
Hər gün yolun gözlədin.
Soyuq-sazaq olanda,
Ona soyuqdur dedin!

İndi rahat yat, uyu!
Qardaşınla qoşasan.
Bacı sən ört üsütünü.
Qardaşın yanındasan!

Onun məzar torpağı,
Torpağına qovuşsun.
Bacı-qardaş ruhunuz
Məzarda Qoşa olsun!

## Oğul dərdi

Yana-yana ağlayardın, bu dərdə
Bir sağalmaz yara vardı, qəlbində.
Təskinlik tapmırdın, heç vaxt yerdə,
Köçdün bu dünyadan dözməyib dərdə,
Qovuşdun məzarda, oğlun Vahidə.

Ata, hər gün məzarına gedərdin
Baş daşını öpüb əzizləyərdin!
Məzarın yox. toyun görmək istərdin.
Sən Vahid Balanı nakam itirib,
Onun toyun məzarında eylədin!

Toy taxtında sən balanı görmədin!
Baş daşıyla, hər gün üz-üzə gəldin.
Üstünə, al-əlvan çiçək bəzədin
Balanın yolunu hər gün gözləyib,
Ağır dərdə Ata dözə bilmədin!

Oğul dərdi, ata səni soldurdu.
Bu dərd sənin qəlbini odlandırdı.
Bacılar qardaşsız saçını yoldu.
Balanı tapmadın, gözlərin doldu.
Ondan sənə qalan, məzarı oldu!

Dedin Tanrı sən qovuşdur balama
Məlhəm budur sağalmayan yarama.
Çağırıram gəlməyir harayıma,
Ulu Tanrı sən yan mənim halıma,
Canımı al, sən balamdan ayırma!

İndii qoşadır, ata məzarınız!
Sizi əvəz eyləyir baş daşınız
Məzarda da olsa Qoşa oldunuz.
Bir yerdədir ata-oğul ruhunuz,
Rahat uyu yanındadır oğlunuz!





## Analar, atmayın övladınızı

Bir Ana gözü yaşlı, övlad həsrətindədir.
Gecə-guündüz Tanrıdan yalnız övlad diləyir!
Biri körpəsin atıb, o, uşaq evindədir,
Ata-anası kimdir, körpənin bilnməyir!

Ana yolu gözləyir, gözünü yola dikir,
Ana qayğısı görmür, ana həsrəti çəkir.
Şirin - ana laylasın, bu körpə eşitməyir,
Ana mehribanlığı - körpə nədir, bilməyir!

Nədir onun günahı, o, bu dünyaya gəlir?
Körpə əziyyət ilə, çətinlik ilə böyüyür!
Başqa bir dərdli qadın, körpə yolu gözləyir,
Tək həyatda arzusu "Ana" olmaq istəyir!

Hər bir zaman xəyalla, ümid ilə yaşayır,
O. övlad həsrətiylə, gecə-gündüz ağlayır.
Yalnız yuxularında körpəyə lay-lay deyir,
Bir gün gələr mənim də, körpəm olar söyləyir!

Şirin xəyallar ilə yaşayır qadın hər an
Baxıb belə qadına, vicdanın varsa, utan?
Yoxdur siz tək qadında nə ləyaqət, nə vicdan!?
Ana olmaz, heç zaman vicdansız qaldınlardan,
Mərhəmət gözləməyin, siz heç bir vaxt onlardan!

Deyin siz, ana adı - onlara yaraşarmı?
Əsl ana "övladın" küçələrə atarmı?
Bu daş qəlbli insandan deyin, ana olarmı?
Böyüyəndə, bu övlad, onunla barışarmı?

Ana əziyyət ilə övladını böyüdər.
Gecə yuxusuz qalıb, övlad qayğısı çəkər.
Ana bütün ömrünü, övladına həsr edər,
Hər zaman övladını ana sevər əzizlər!

Vaxt gələr, sən atdığın övladın da böyüyər.
Həyatda sənin ilə, bir gün üz-üzə gələr!
Bəxtindən-talehindən hər bir zaman inciyər.
Nə qədər ömrü varsa, sənə nifrət eyləyər!

Onda nə söyləyəcək, sizin kimi analar?
Anaların adına, bu cür ləkə qoyanlar?
Gün gələcək, tanrımız siz idə qocaldacaq,
Bu an. sənin gözlərin, Balanı axtaracaq.
Hər ötəndən-keçəndən onu soraqlayacaq!

Vicdanınla üz-üzə bir gün sən qalacaqsan!
Etdiyin əməlinə, peşiman olacaqsan.
Övladını yadına salıb, ağlayacaqsan.
Nə qədər, ağlasan da bəlkə, tapmayacaqsan?
Bu şəhfi sən, özünə bağışlamayacaqsan...

## Yaşamaq istəyirəm ata sənli günləri

*Qardaşım Vidadinin atası*
*Səfər əminin xatirəsinə*

Yaşamaq istəyirəm ata sənli günləri
Xatırlayıram hər an sənlə ötən illəri.
İstəyirəm ay ata sənlə bir yerdə olam.
Hər gün bizə gələsən, mən səni qarşılayam!
Sevincli anlarımı səninlə deyəm-güləm.
Nəsihətin dinləyəm, sənlə dərdimi böləm!
Ata sənsizləmişəm, həsrətini çəkmişəm.
Sənin gələn yoluna ay ata, göz dikmişəm!





Niyə qayıtmayırsan, söylə görüm, ay ata?
Axı sən qayıdardın, səfərlərə gedəndə?
Kaş yenə qayıdaydın, məni qucaqlayaydın!
Boynuna sarılaydım, telin sığallayaydım!
Ata, yenə sən məni, sevib-əzizləyəydin.
Çəkdiyim əziyyətə ata qiymət verəydin.
Hər zaman zəhmətkeşdir, mənim balam deyəydin!

***

Qayıtmaq istəyirəm ata sənli günlərə,
Ötüb keçən illərə!
Qayıt Ata, dön geri, yolunu gözləyirəm!
həsrətə dözməyirəm.
Niyə qayıtmayırsan, sən oğlunun yolunu,
İntizarda qoyursan?
Necə dözüm ay Ata, indii bu ayrılığa?
Ata, səni tapmayıb, gedirəm məzarlığa...

***

Məzarının üstündə - Ata ağac əkmişəm!
Bəlkə də göz yaşıyla, mən onu göyərtmişəm!
Bu ağac göyərdikcə - Ata çox sevinirəm.
Bu ağacı özümə mən təskinlik bilirəm.
Bilirəm ki, ay Ata geri dönməyəcəksən.
Gözüm səni axtarır, yolunu gözləyirəm!

***

- Oğlum gözələmə məni, geriyə dönməyəcəm.
Səfər uzun səfərdir, əbədi gəlməyəcəm!
İntizar qalma məndən, dünya budur əzəldən.
Ruhum oğlum sevinir, bu ağac göyərəndən!
Qol-budaqlı bu ağac, - Mənim balalarımdır
Bu ağac göyərdikcə, bilin ki, ruhum şaddır
Əgər ağac qurusa, atan çox narahatdır
Siz xoşbəxt yaşayanda, - Ruhumda rahatlaşır!

## Qoşa olsun sizin ömür yolunuz

***Sevimli qardaşım Əli müəllimin həyat yoyldaşı oftomoloq-cərrah Elmira xanıma həsr olunub.***

Qardaş bizim gözümüzün nurusan,
Sən, hər zaman bizə dayaq durmusan
Atana-anana hörmət bəsləyib,
Onlara "layiqli" övlad olmusan.

Yoldaşın ailənin sevimlisidir,
İki qızın ailəmizin gülüdür.
Aysunla Surayə körpə balamız,
Babanın, nənənin istəklisidir!

Bacım, sən də bacımızın birisən,
atama-anama övlad gəlmisən.
Böyüyün, kiçiyin yerini bilən,
Gözəl qadın, həm də gözəl həkimsən!

Xəstələrin, bacı ümid yerisən,
Gözlərini nura qərq eyləyirsən.
Qaranlıq dünyasın alıb əlindən,
İşıqlı dünya ilə əvəz edirsən.

Paşa müəllimin tələbəsisən,
Sən onunla hər zaman fəxr edirsən.
Biliyinlə, həkim istedadınla
Xəstələrdən heç nə əsirgəmirsən.

İstər həkim olsun, istər müəllim
Hər kəs tapır, həkim sizdə əlacı.
Şəfalı əlinə, barmaqlarına
Həkim, xəstələrin var ehtiyacı!





Şairə şəfa ver, görsün gözləri,
Yarımçıq qalmasın şeiri, nəğməsi!
Müəllimi sağalt, həsr olur bizə
Ömrünün hər anı, hər dəqiqəsi!

Sənətini bacı sən çox sevirsən,
Qızlarını həkim görmək istərsən.
Sənətini qızlarına sevdirib
Həkim görsən onları sevinərsən.

Hər kəsin yanında vardır hörmətin,
Sevgiylə yoğrulsun, Ailə təməlin.
Ucalsın hər zaman işin, əməlin
Qarşılasın səni xoşbəxt günlərin.

## Ana nurlu səhərim

Ana halal eylə, bizə südünü,
Övladlara həsr eylədin ömrünü.
Dinlədik, biz sənin hər öyüdünü,
Duyduq, hər an bizə olan sevgini!

Qara saçlarını, ana, ağ hördün,
Bizə hər an sevgi, qayğı göstərdin.
Dil açanda, yeriyəndə sevindin
Həyatının mənasın, bizdə gördün!

Qocalsaq da, telimiz ağarsa da.
Bizi, uşaq kimi sən əzizlədin.
Bir gün gec gələndə, səni görməyə
Ana bizdən küsdün, bizdən incidin!

Həyatımda "Ana" doğan, Günəşsən!
Nəfəsinlə, bizi isindirirsən.
Qaranlıq gecədə, nurlu Səhərim,
Sinəmdəki, döyünən ürəyimsən!

## Ad günün mübarək

Bu gün sənin ad günündür
Xoşbəxt həyat yaşa bacım.
Ömrü, sevincli anlarla
Vur hər zaman başa, bacım.

Ömrün hər an çiçəklənsin
Üzünə sevinc ələnsin.
Sənin ömür yollarında
Talehin üzünə gülsün.

Bacı məni dost bilmisən
Xoş günümə sevinmisən.
Sevincli, xoş anlarını,
Mənim ilə bölşmüsən.

Gözəl bir qız böyütmüsən,
Sən, mənə övlad vermisən.
Ləyaqətli övladınla,
Bacı hər an fəxr eylə sən.

Minəntdaram bacı sənə
Dostsan, həm bacısan mənə.
İstəyirəm ömrün boyu
Qəlbim hər ana fərəhlənə!

## Ana

Ana nəvaziş ilə övladını böyüdər,
Onun ılıq nəfəsi övlada həyat verər.
Ana, qızmar günəş tək övladın isindirər,
Anasız olan evin çırağı erkən sönər!

Ana barlı ağacdır, meyvəsi övladlapı,
Toxunmayın, zərifdir onun qol-budaqları.





Hər zaman ucalıqda çəkilir onun adı.
Sevin, siz əzizləyin incitməyin onları!

Sevgi dolu dünyanı bəxş edin, qadınlara.
Siz mərhəmət göstərin hər zaman Analara.
Heç vaxt tənha qoymayın, siz onları atmayın
Xoşbəxt bir həyat verin, o incə məxluqlara!

## Ana nəsihəti

Saçımı ağ hörüb, sizi böyütdüm
Görüb sevinirəm, xoş gününzü!
Hər zaman duyuram, anaya olan
Böyük məhəbbəti, mən sevginizi!

Ötən günlərimə heyfsilənmirəm,
Sizinlə özümü xoşbəxt bilirəm.
Unudub, dünyada qəmi-kədəri,
Övladlarım, sizinlə fəxr edirəm.

Qara saçım bir gün bəyazlaşsa da,
Gənclik əldən gedib, uzaqlaşsa da,
Anan qəddin əyib, bil qocalsa da,
Sizi uşaq kimi əzizləyəcəm!

Bir gün mən də dünyanı tərk edəcəm.
Hər kəs kimi, haqq dünyaya gedəcəm.
Mən, xoşbəxt ana tək, köçüb dünyadan,
Zəhmətimi, sizə halal edəcəm!

Gün gələcək ayrılacam sizinlə,
Məni eşit, oğul, sözümü dinlə!
Sən aqil ol, hər kəlmənlə-sözünlə,
Çalış hörmət qazan, əməllərinlə!

Yaxşını yamandan oğul. ayır seç,
Danışanda sözü sən, yüz ölç, bir biç.
Aldanma, ay oğul, vara-dövlətə,
Həyatın sən hər bir, sınağından keç!

Bu dünya yalandır, fani dünyadır.
İnsanları, qonaq kimi saxlayır.
Qoynunda saxlayıb, bir gün qocaldır,
Verdiyi həyatı, əlindən alır!

Həyat çox şirindir, insan doymayır.
Fani dünya. bir kimsəyə qalmayır.
Çox şirin də olsa həyat insana,
Hər bir kəs "ölümün" acısın dadır!

Dünya səni cəh-cəlalla aldadır,
Kimin xoşbəxt, kimin bədbəxt yaşadır.
Hər bir insan gözəl əməlləriylə,
Xatirəyə dönüb, yaddaşda qalır!

Səbirli ol, səbr Allahın adıdır,
Ulu Tanrım hər kəsin dayağıdır!
Bir günə gələn, bir gün köçər dünyadan
İnsanlara qalan "haqq dünyasıdır!"





# Körpə balalarımıza

## Sən dünyaya gələndə



Sən dünyaya gələndə
Necə də sevinirdim.
Özümü mən dünyanın,
Çox xoşbəxti bilirdim.

Sevinirdim bir körpə,
Nəvəm dünyaya gəlib.
Nəvəm məni dünyanın,
Bu gün xoşbəxti edib.

Hələ çox balacadır,
Saçları qap-qaradır.
Nə qədər ağlasa da,
Yaman şirin baladır.

Bal-şəkərdir nəvəmin,
Balaca dodaqları.
Al-qırmızı laləyə,
Bənzəyir yanaqları!

Gün gəlsin o böyüsün.
Nənəsi fəxr eyləsin.
Yüyürüb qucağıma,
Çoxlu, şeir söyləsin!

İgid bir oğul olsun,
Arzu murada yetsin.
Mənim balam böyüyüb,
Vətənə xidmət etsin!

## Körpə Ləmanım



Sanırdım ki, Rəşadım mənim üçün əzizdir.
Sən demə ki, balası özündən də əzizdir.
Duymazdım şirin olar, nəvə bu cür nənəyə,
Qəlğində yuva salıb, girər bu cür ürəyə!

Onunla sevinirəm, mən onunla gülürəm
Mən onu ürəyimin, bir parçası bilirəm.
Onun dəcəlliyini sevinclə izləyirəm.
Onlarsız həyatımı təsəvvür eyləmirəm!





Nənə mənimdir deyir, saçımı tumarlayır,
Qucağıma yüyüryb, boynumu qucaqlayır.
Ləman mənsiz bir yerdə, bircə an da qalmayır.
Həmən anda sevincim, yerə-göyə sığmayır!

Çox dəcəlilk eyləyir, mənim körpə Ləmanım.
Nəvələrsiz olmasın, mənim heç bircə anım!
Nəvələrimdir mənim, bütün arzum, muradım,
Onlar mənim həyatda, vüran ürəyim-canım!

## Gözəl-göyçək Ayselim, ad günün mübarək

Sən mənim ömrüm-günüm,
İnci çiçəyim, gülüm,
Hər kəsin sevimlisi
Gözəl-göyçək Ayselim.

Gözəl, ağıllı qızsan,
Sanki, yanar ulduzsan,
Ömrümdə bahar, yazsan
Gözəl-göyçək Ayselim.

Qəlbimin sevincisən,
Mirvarimsən, incimsən,
Sən açılan qönçəmsən
Qara gözlü Ayselim.

Oxu, məktəbi bitir,
Sən atanı sevindir,
Sən gözəl həkim olub
Ailəyə sevinc gətir.

Ata-anan sevinsin,
Sənin ilə fəxr etsin,
Taleh üzünə gülsün
Gülər üzlü Ayselim.

# Ana Kürüm, mənə şirin layla de

## Xan Araz salam de, məndən elimə



Arazın o tayında.
bir ana oğul dərdli,
biri ata həsrətli.
biri bacı axtarır.
- biri itgin qardaşın...
Ananı - balasından
bacını qardaşından
bu tikanlı məftillər,
bu "Şərhədlər" ayırır!
Nalə çəkir, Xan Araz!
gah kükrəyir, gah coşur.
Qəriblərin göz yaşı.
Axan suya
- qovuşur.





Hər kəs elin-obasın
Xan Arazdan soruşur.
Ayrılığa dözməyib,
Araz da, aşır-daşır!
İnsanların dərdinə
Arazın axan suyu,
- qəmli bir nəğmə qoşur.
bir "Ayrılıq" nəğməsi!
Qəriblərin naləsi,
Qoşularaq sulara
- ağladır hər bir kəsi!
Su axır uzaqlara,
Xan araz salam deyir
didərgin insanlara!
Ağ saçlı analara!
Vətəndən ayrı düşüb,
Qürbətdə qalanlara,
Gözləri yaşla dolub,
Qardaş axtaranlara!
Salam söyləyir. Araz!
Sinəsi dağlı ArAZ!
Gözləyir hər il, hər yaz
Sərhədləri açarlar!
Qəriblikdə insanlar,
Elinə qovuşarlar!
- Açın siz sərhədləri!
- Azad olsun insanlar!
Gözü yaşlı qalmasın,
Heç vaxt ata-analar.
Dost olsun, həmrəy olsun
Dünyada bütün xalqlar!

## Kürüm-Arazım mənim



Necə gözəl bir aləmdir
Kür ilə Araz qovuşur!
Sakit-sakit axan Kürüm,
Sakitləşir, gah da coşur!

Mirvari tək axan suyu,
Kür hər yana səpələyir.
Axan suyun şırıltısı
Bizə şirin nəğmə deyir.

O oxşayır nəğməsiylə
Ruhumuzu, qəlbimizi.
Kür ilə baş-başa qalıb,
Bölüşürük dərdimizi.





Kürə baxıb düşünürük.
Ötən günü yad edirik.
Ömrün keçən günlərini.
Axan suya bənzədirik!

Qəlbimizdə min bir arzu,
Xoş xəyalla yaşayırıq.
Şirin-acı xatirəni,
Biz Kür ilə paylaşırıq.

Coşub-daşan Ana Kürüm,
Kükrəyir, fəryad qoparır.
Qəm-kədəri alıb bizdən,
Yuyub, özüylə aparır.

Su aparır uzaqlara,
Dərdin qarışır sulara.
Acı günün xatirəsi
Axıb qoşulub çaylara!

## Açın quş qəfəslərin

Bir cüt quş civildəşir
Kiçik quş qəfəsində.
Gör nə qədər ahəng var,
Qoşa quşun səsində.

O könülələr oxşayır,
Amma qəlbi ağlayır.
Səmalarda uçan quş,
Dar qəfəsə sığmayır!

Hər kəs düşünməyir ki,
Onlar dar qəfəsdədir:



Nə qədər oxusa da,
Azadlıq eşqindədir!

Sən, səsin dinləyirsən
Dərdini bilməyirsən.
Bəlkə də o ağlayır,
Sən onu görməyirsən!

Güldən siz ayırmayın
Heç zaman bülbülləri.
Adam heç ayırarmı?
İki sevgililəri!

Açın siz qəfəsləri
Buraxın bülbülləri.
Bürüsün dünyamızı.
Quşların nəğmələri.





## Fəxrisiz, şair siz Sabirabadın



***Gözəl şairimiz, bizim fəxrimiz olan on doqquz kitabın müəllifi, gözəl pedaqoq "Ilin müəllimi" adına layiq görülmüş, Vətənpərvər Şairimiz Hənifə Şərifova həsr olunub.***

Fəxrisiniz şair siz Sabirabadın
Ucaltdın bir daha Sabirin adın.
"Vətənpərvər" şair kimi ad alıb,
Sevirsiniz doğma Vətən torpağın.
Hər bir sözün mirvaridir-incidir,
Qəlbiniz şair Vətən nisgillidir.
Oxuduqda şeirində hər kəlməni
Duyğuların kədərli-sevinclidir!
Vətən eşqiylə fəryad qoparırsan,
Vətən dərdin yana-yana yazırsan.
Düşmənin əlində qalan torpağı
Bu çağında sən almağa hazırsan!
Şeirinzdə hər kəlməni, hər sözü
Oxuduqca bu anı yaşayırsan.
Sevincli-kədərli bütün anları
Oxucunla hər zaman paylaşırsan!
Bəzən güldürüb, bəzən ağladırsan
Sən sevgini uca varlıq sanırsan.
Vəfasızı sən şeirində qınayıb,
İnsanları sevgiyə çağırırsan!

Oxuyanda sevgi şeirlərini
Şirin-şirin xəyallara dalırsan.
Sevgilinlə, qoşa sanıb özünü,
Bir anlıq kədərdən uzaq olursan.

Tez yol tapır, şeirinz qəlbimizdə,
Saf məhəbbət, Vətən eşqi var sizdə.
Hiss olunur o gülər üzünüzdə,
Mehribanlıq, sadəlik çöhrənizdə!
Siz böyük şair həmdə müəllimsiniz
Vətənpərvərdir hər bir şagirdiniz
Onları bu ruhda tərbiyə edib
Vətəni sevməyi öyrədirsiniz.
Şeirinzə mahnılar bəsdələnib
Oxunur dillərdə şair səslənir.
Ağıldanzəkadan ağaran tellər
Üzünüzə şair sizin nur verir.
Biz sizinlə hər zaman fəxr edirik
Adınızı iftixarla deyirik.
Sizdən yeni şeirlər gözləyərək
Şair sizə uğurlar diləyirik.
Arzum budur daim yazın-yaradın
Gözəl mükafatlar, yeni ad alın.
Şeir çələngini siz hörə-hörə,
Şeir yollarında siz cavan qalın!

## Dəniz sahiliydi görüş yerimiz

Bilmədim səninlə necə ayrıldım,
Bizi ayırdılar bir-birimizdən.
Sən başqa bir evdə çıraq yandırdın,
Şirin xəyal qaldı bu sevgimizdən.
Dəniz sahiliydi görüş yerimiz,
Qumlu sahillərdə gəzişərdik biz.
Gəzəndə sahildə səninlə-mənim,
Düşərdi sahilə ayaq izimiz.
Yelkənli qayığa minib gəzərdik,
Bir yerdə dənizi seyr eyləyərdik.





Dənizin qoynunda səninlə qoşa,
Dənizi bu eşqə "şahid" edərdik.
İndi tənha qalıb mən ağlayıram,
Dəniz sahilində addımlayıram.
Baxıb görüş yerin xatırlayıram,
Xoşbəxt anlarımı yada salıram.
Dəniz də söyləyir, hanı sevgilin?
Niyə seyr edirsən, sən tənha məni?
Qüssədir-kədərdir, qəmdir gözlərin,
Yoxsa tərk eyləyib, sevgilin səni?
İndi nə söyləyim, söylə dənizə,
Vəfasız deyəcək hər birimizə.
Dəniz də biləndə ağlayacaqdır,
Bizim nakam olan bu sevgimizə!

**12.III.2010**

## Açılmaz sirri çox ulu bəşərin

Açılmaz sirri çox ulu bəşərin
Təkdir yaradanı bu möcüzənin.
Nələr bəxş etməmiş Tanrımız bizə,
Odur hökmdarı yerin və göyün!

Günəşi yaratdı, bizi isitdi
Ay, zülmət gecəni nura qərq etdi.
Buludu yaratdı, yağdı yağışlar,
Torpağın üçtündə min nemət bitdi.

Axdı dağ döşündən sərin bulaqlar,
Bizimçün yaratdı o uca dağlar.
Göy üzün bürüdü parlaq ulduzlar
Yaşıl çöl-çəməndə axdı gur çaylar!



Tanrımız yaratdı hər bir insanı.
Verdi bəndəsinə o, hər cür nemət.
Yaratdı quşları, hər bir heyvanı,
Vardır onda böyük qüdrət-kəramət!

Arını yaratdı bal verdi bizə,
Topladı şirəsin gülün-çiçəyin.
Arılar çiçəkdən bal hazırladı,
Oldu bal, çarəsi sağalmaz dərdin!

Kiçik qarışqanı işlək yaratdı.
İşləyib özünə o, ruzi yığdı.
Kiçik bir həşarat biz insanlara,
İpəkdən geyməyə saplar toxudu!





Onun yaratdığı kiçik hörümçək
Ovunu tutmağa hər an tor qurdu.
Tikanlı yaratdı kirpini Tanrı
Tikanı hər zaman onu qorudu!

İlahi bizimçün əlçatmaz varlıq
Sənə Şükr edərik, namaz qılarıq.
Sənin yaratdığın bütün bəndələr,
Hər zaman biz sənə arxalanarıq!

Adını çağıranda darda qalmarıq.
Çətinə düşəndə, kömək umarıq.
Sənə dua edib, ey ulu Tanrım
Səndən xəstələrə şəfa taparıq!

## "Gözəlliklə halallıq xilas edər dünyanı"

Deyirlər, xilas edər gözəllik bu dünyanı!
Mən deyərdim halallıq, bürüsün hər bir yanı.
Bürüsün el-obanı, bürüsün bu cahanı
Gözəlliklə halallıq, xilas etsin dünyanı!

***

Hər bir kəs halal olsun, vətəninə elinə!
Düz olsun, hər bir zaman işinə-əməlinə.
Kaş halallıqla olsun, dünyada hər nə var
Dünyamız xilas olar, hər kəs halal olarsa!

***

Halallıq gərək olsun, hər bir kəsin canında.
Axsın hər bir insanın, damarında qanında
Dünyada, hər bir zaman, halal olsa insanlar,
Bəlkə də qəddarlığa gün gələr, son qoyular!

***

Halallıqla gedərsə dünyanın gedişatı.
Qara bulud bürüməz, işıqlı kainatı.

Xoşbəxt olar insanlar, xoşbəxt olar analar!
Uşaqların üzündə, daim təbəssüm olar!
Göyərçinlər, səmada hər zaman qanad çalar!
Müharibə dayanar,
bizim qoca dünyamız
sülhlə bərqərar olar!

## Türk xalqının yolunda "Türk qızı" işıq saldı

***Milli məclisin deputatı, YUNESKO-nun xoş məramlı səfiri, xeyriyyə və mədəni təşkilatların sədri Mehriban Əliyevaya həsr olunub.***

Bu gün böyük şairin
Mir Cəlalın dünyaya
Bir gül nəvəsi gəldi,
Gəlişiylə bu körpə,
Ailəyə böyük sevinc,
İşıq-nur səpələdi.
Ağlı-davranışıyla,
Mehriban baxışıyla,
Uşaq ikən seçildi,
Böyüdü, dərsə getdi.
Bu qız orta məktəbi
"Medal" ilə bitirdi.
Oxuyub təhsil aldı,
O, gözəl həkim oldu.
Əlinin şəfasıyla
Gözlərə nur payladı
Millətinə-xalqına,
Hər zaman dayaq oldu.
Muğamı-musiqini
Bütün dünyaya yaydı.
Qocaya-əlillərə,
Evsiz olan gənclərə,





Yeni bina tikdirib,
Köçürtdü bu evlərə.
Hər zaman yardım etdi,
O, uşaq evindəki,
Atılmış körpələrə,
Dünyaya göz açandan
Sanki, bu qız yaranmış
Xeyirxah əməllərə,
O, xalqının gözündə
Ucaldı zirvələrə!
Bu xeyirxah qadının
Adı düşdü dillərə!
"İlin qadını" oldu,
"Yaqut xaç" ordeni aldı.
Xeyirxah əməliylə
Türk xalqının yoluna
"Türk qızı" işıq saldı,
Mehriban ilə İlham
Xoşbəxt bir ailə qurdu!
Ulu Heydərimizin
"Türk qızı" gəlini oldu,
Ötdü illər-fəsillər,
Körpə Heydər doğuldu!
Tanrı çox sevindirdi,
Kiçik Heydərlə bizi,
Körpə Heydər yaşatdı,
"Ulu Öndərimizi"
çox sevirdi xalqımız
Sevdik onu hamımız.
Bir gün Heydər böyüyər,
Babasına bənzəyər,
babası Heydər kimi.
Vətənin-xalqın sevər!
Ağlı-zəkası ilə,

Gözəl əməlləriylə,
hər zaman dayaq olar,
Vətəninə-elinə!
gün gələr "Heydər" çatar,
Ucalıq zirvəsinə!

## Aldanma heç zaman dünya malına

Kimlər gəlib bu dünyaya, bu dünya kimə qalıb?
Kim dünyadan köçəndə, dünya malın aparıb?
Dünya malı hər zaman qardaşı-qardaşından.
Ananı-balasından, dostu dostdan ayırıb!

İnsan fitnə-fəsada, oğurluğa əl atıb,
Dünya malı hər zaman, insanın gözün tutub.
Ləyaqətin alçaldıb, vara-dövlətə çatıb
Haram çörəyi yeyib, o, halal kimi dadıb!

Düşünməyib, bu dünya, bir kimsəyə qalmayıb.
Əbədilik dünyada, hələ heç kəs olmayıb.
Olsa da var-dövləti, çoxlu qızıl-zinəti
Bu dünyadana köçənlər var-dövlət aparmayıb!

Aqil insan, dünyanın varına aldanmayıb,
Özünü bu dünyada. hər an qonaq tək sanıb.
İnsanlara əl tutub, məzluma dayaq durub
Yaxşı əməlləriylə, haqqa dünyası qazanıb!

## Vətənimin, şair oğlu Zəlimxan!

**Xalq şairi Zəlimxan Yaqubun**
**60 illiyinə həsr olunub**

Xalqımı birliyə haraylayırsan
Düşməni sözlə lərzəyə salırsan,





Elin dərdin sən öz dərdin sanırsan.
Sən Vətənçün, el üçün doğulmusan,
Vətənimin, şair oğlu Zəlimxan!

Şair, çox bağlısan doğma Vətənə,
Sözü yağdırırsan namərd düşmənə,
Alışıb yanırsan, vətən dərdinə
Halal olsun, ananın südü sənə,
Belə oğul böyüdübdür, Vətənə!

El dərdi çəkməkdən ozan olmusan,
Hər kəlmənlə aləmə ün salmısan,
Düşmənlərin gözündə kül olmusan,
Elimin Nəbisi, Koroğlulsusan
Sən xalqımın "vətənpərvər" oğlusan!

Sən öz sənətində, böyük ustadsan,
İlk yaranan gündən, bir istedadsan,
Böyük Şair, Tanrıdan bizə paysan,
Sən xalqıma, Vətənimə dayaqsan,
Vətənimin, Şair oğlu Zəlimxan!

Bura Şair diyarıdır deyirlər,
Vətənimdə çoxdur gözəl şairlər,
Millətin xalqın səni, çox sevirlər,
Elimizin ağsaqaqlı Zəlimxan
Xalqımızın Şair oğlu Zəlimxan!

Sən sazını sinən üstə alanda,
Qəmli-qəmli mizraba toxunanda,
El dərdin, yana-yana oxuyanda
Qəlbin başı köz-köz olur, Zəlimxan
Qəmli gözün yaşla dolur, Zəlimxan!

İçində haray çəkib, ağlayırsan,
İçin-için alışıb. sızlayırsan,
Dərdi sözlə sətirə paylayırsan
Köklə sazı, sinən üstə Zəlimxan
Ağla elin dərdin, ağla Zəlimxan!

Kişilər ağlamaz, bəzən sanırsan,
Ağlayanda özünü qınayırsan,
Dərd içində dərdlə tənha qalırsan,
Saz sinəndə ağla yurdu-yuvanı,
Şair oxu, sən çal qəmli havanı!

Qoy dərdini duysun bütün insanlar,
Dinləsin səsini ellər-obalar.
Səsinə səs versin qərib olanlar
Ağla Vətən dərdin, ağla Zəlimxan
Xalqın dayağıdır sən tək oğullar!

## Toy günü

Bu gün toy günüdür, büsat günüdür.
İki cavan, iki xoşbəxt balanın
Yığışıb dost-tanış, bu gün məclisə,
Sevinci hədsizdir, ata-ananın.

Bir qız bir ocaqda gəlin olacaq,
Gəlişiylə ocağa nur dolacaq.
Gəlin köçüb, bu evdən başqa evə,
Adı kimi "Səadət" aparacaq!

Əziz balam, səni xoşbəxt olasan
Arzu-diləyinə yetib, çatasan.
Enişli-yoxuşlu ömür yolunda
"Sevgi şərbətini" içib, dadasan!





Biri-birinizə, dayaq olasız
Sevgililər xoşbəxt ailə qurasız.
Çətin gündə, yaxşı gündə sınaqdan
Hər bir zaman, alnı açıq çıxarsız!

Arzum budur, qoşa ömür sürəsiz
Ömrünüzə, sevinc düzüb-hörəsiz.
Bu yollarda. heç zaman büdrəməyib.
Yanınızda, gül "balalar" görəsiz!

Mehparəyəm, bü gün şadam nə qədər!
İstəmirəm, heç vaxt, qüssə, qəm-kədər!
İstəyirəm, sevinc olsun, yolunuz
Sevginizi böləsiz, tən bərabər!

## "Quşların da taleyi insanlara bənzəyir"

Eyvanın qarşısında, bir yaşıl ağac vardı
Bu ağacın üstünə, çoxlu quşlar qonardı.
Elə ki yaz gələrdi, hər yan yaşıllaşardı,
Qaranquş bu ocaqda, hər il yuva qurardı!
Ağzında saman çöpü, gah da gil gətirərdi,
Min bir çətinlik ilə ana, yuva hörərdi.
Körpə balalar burda, hər gün civildəşərdi.
Açıb ağızlarını, anadan yem istədi
Ağzında, ana hər gün onlara yem verərdi.
Ana balalrını beləcə böyüdərdi.
Quşlar qanad açanda. yuvanı tərk edərdi...
Necə quşun talehi insanlara bənzəyir!
Ata-ana ömrünü, övlada həsr eyləyir.
Gəncliyi necə keçdi, heç özü də bilməyir.
Övladlar da beləcə boy atıb böyüyürlər.
Bir gün bu quşlar kimi yurdu tərk eyləyirlər!

İllər, aylar ötüşür, ata-ana qocalır!
Bəziləri, ataya-anaya nankor olur,
Qoca ata-ananın gözünü yolda qoyur.
Yaxına buraxmırlar, qayğısına qalmırlar.
Ata-ana kimsəsiz, ömrü başa vururlar!
Xəstə yatıb yataqda, canların tapşırırlar.
Son vida günlərində bir övlad tapılmayır!
Onların cənazəsin, dost-tanışlar aparır.
Talehsiz qocalara, yerdə-göydə ağlayır!
İllər-aylar ötəcək, hər bir kəs qocalacaq.
Etdiyi əməllər qarşısına çıxacaq!

## Həkim

***Həkim stomotoloq Ağaverdiyev Bayraməli və övladları stomatoloq Əhəməd və Günel xanıma həsr olunub.***

Ağ xalatı geyinmisən.
Çox yaraşır sizə həkim.
Tellərinin bəyaz qarı
Nur çiləyir üzə həkim!

Sənətini çox sevirsən,
Mehribansan, səmimisən.
Hər bir zaman xəstələrə
Ay həkim şəfa verirsən.

Sənətinin vurğunusan,
Çox ciddisən, qürurlusan.
Xəstələr şəfa tapanda,
Həkim çox xoşbəxt olursan.

Çox mülayimdir qəlbiniz,





Şəfalıdır əlləriniz.
Sizi daima ucaldır,
Həkim xoş əməlləriniz!

İşə çox bağlısınız siz
Sənətə vardır sevginiz.
Həkim razı qalır sizdən,
Sizin hər bir xəstəniz.

Övladların həkim sənin
Yolunu davam edirlər.
Sevdirdiyin bu sənəti
Həkim sizin tək sevirlər!

Qızın Günel, oğlun Əhəməd
Hər ikisi həkimdirlər
Övladların sizin ilə
Həkim hər an fəxr edirlər.

Neçə övlad böyütmüsən,
Gözəl tərbiyə vermisən.
Sən həkimlik sənətini
Onlara da sevdirmisən.

Gözəl həkim, gözəl insan
Sən qayğıkeş, bir Atasan!
Hər bir kəsin ürəyində
Böyük sevgi qazanmısan!

## Sanki, möcüzədir gözəl təbiət

Tanrının gör nə qədər, böyük möcüzəsi var
Sanki, xalıya bənzər, göydə yanar ulduzlar
Gecələr ulduzla ay, hər yana işıq salar
Günəş qızmar şəfəqin gündüz hər yana yayar

Buludlar topa-topa, səmada qatarlanar.
Yağış yağar, hər tərəf yerdə, göydə islanar!
Yağan yağış dayanar, göy qurşağı yaranar.
Ao-qırmızı lalələr dağın başını alar
Dağlar al lalələrdən başına örpək salar
Zəmilərdə sünbüllər günəş rəngini alar.
Yaşıl çöldə-çəməndə gül-çiçəklər açılar.
Dəniz üstə seyr edər, uçuşar qağayılar.
Dənizə lay-lay çalıb, nəğmə oxuyar onlar
Gah kükrəyər, gah coşar dəniz üstə dalğalar.
Dəniz hey ləpələnib, qayalara çırpılar.
İnsan bu gözəlliyə baxdıqca heyran olar!

## Dünya fani dünyadır

Dünya yalan dünyadır, yaşa yalan dünyanı
Hər bir zaman aldadı, o qocanı-cavanı.
Bu dünyada yaşayan əbədi söylə, hanı?
Tanrı bir gün alacaq, sənə verdiyi canı!

Uyma, fani dünyaya, dünya kimə qalıbdır,
Dünya varla-dövlətə, hər kəsə aldadıbdır.
Kimi öz mənliyini, pula-vara satıbdır
Kimi yaxşı əməllə, bir anda ucalıbdır!

## Yurdumuza yaz gəlir

Torpağıma-elimə
Bu gün gözəl yaz gəlir!
Baharın gəlişinə
Hamı sevinir-gülür.
Bütün dağlar-dərələr,
Yaşıl dona bürünür.
Yamaclarda-düzlərdə.
bənövşələr görünür.







Qaranquşun gəlişi
"Bahar" gəlibdir deyir.
Novruz gülünün ətri
Çöl-çəməni bürüyür.

Baharın gəlişini
Biz bayram eləyirik!
Xonçalar bəzəyirik,
Al-əlvan xonçalara
Hər cür nemət düzürük.
Tonqallar yandırırıq
Tonqalın ətrafında,
Hər kəs haray vururuq.
Kosanı çağırırıq.
Kosanın heybəsinə,
Şəkərbura-paxlava,
Ləbləbi doldururuq.
Yumurta boyayırıq,
Biz bayram axşamında.
Oyunlar oynayıraq.
Hər qapıya, hər evə
Bir papaq tullayırıq.
Bacalardan pusuruq.
Gizlin qulaq asırıq.
Hər kəs xoş söz eşitsə,
Arzumuza çatırıq.
Gül-çiçəkli baharı
Bu cür qarşılayırıq!

**20 mart 2009.**

## Vəfalı dost sənə hər an dayaqdır

Hər insanın dosta ehtiyacı var,
Dost dar gündə, çətin gündə sınanar.

Əsl dost hər zaman qayğına qalar,
Sənə dayaq olub, dərdinə yanar!

Mənim də bir dostum var bu həyatda
Mənə dayaq olub. çətində-darda.
Dostlar çox olurlar, toyda-büsatda
Dost odur ki, çətində qala yadda!

Mən onu həyatda çox sınamışam,
Bu dostluğa. hər an arxalanmışam.
Kədərli, şad gündə yanımda olub,
Tək onu dostluğa, layiq sanmışam!

Axtarmayıb, o, dostluqda şan-şöhrət.
Qəlbində olmayıb. bir kin-kidurət.
İllər boyu. bizim bu "dostluğumuz"
Həyatda veribdir bizə bir qüvvət!

Bu dostluqda hər sınaqdan keçmişik
Biz çox çətinliklərlə üzləşmişik.
Bir ağlayıb biz qoşa sevinmişik
Dostluğu, hər şeydən üstün bilmişik!

Hər yoldan ötənə çalış dost demə,
Heç vaxt vəfalı dostları itirmə.
Çətin gündə səni barda qoyanı,
Qəlbində, dostluğa sən layiq bilmə!

Dost qədri bilənə, dost var-dövlətdir.
Yaxşı dost səninçün qızıl-zinətdir.
Vəfalı dostları olan bir insan
Bil ki, bu dünyada hər an xoşbəxtdir!





## Kitabın içindəkilər

Ülvi duyğuların arxasında . . . . . . . . . . . . . . . . . . .3

*Vətən bizi haraylayır*

"Hər an qəlbimizdəsən" . . . . . . . . . . . . . . . . . . . . .7
Yerin-göyün Xocalı qan ağladı" . . . . . . . . . . . . . . .11
Ana Vətən . . . . . . . . . . . . . . . . . . . . . . . . .12
"Yaz da gəldi, biz Vətənə dönmədik" . . . . . . . . . . .13
Qaytar məni, torpağıma-elimə! . . . . . . . . . . . . . . .14
Ağlama, sil ay ana, göz yaşını . . . . . . . . . . . . . . . .15
"Vətən məni bağışla, bu torpaqda qəribəm" . . . . . . .16
Azərbaycan qadını . . . . . . . . . . . . . . . . . . . . . . . .17
"Müstəqil Azərbaycan" . . . . . . . . . . . . . . . . . . . . .18
Ağla sazım, sazım ağla" . . . . . . . . . . . . . . . . . . . .19

***Çiçəklər də Şəhidləri ağladı***

"Ana məni gözləmə, geriyə dönməyəcəm" . . . . . . . .21
İtirsən məni . . . . . . . . . . . . . . . . . . . . . . . . .22
Şəhid oldu balalar . . . . . . . . . . . . . . . . . . . . . . . .23
"Qanlı gecə" . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
Göz yaşı axıtdı, bütün xalqımız . . . . . . . . . . . . . .27
Toy taxtım qaranlıq məzarım oldu . . . . . . . . . . . . .28
Qəhrəmanlar ölməzdir . . . . . . . . . . . . . . . . . . . . .29
Şəhidlərə həsr olunmuş bayatılar . . . . . . . . . . . . .30
Gəlin və qaynanalara həsr olunub . . . . . . . . . . . . .33

***Acılı-şirinli məhəbbət payım***

Bizim də sevginin sonu bu imiş . . . . . . . . . . . . . . .35
Məhəbbəti bölüşək . . . . . . . . . . . . . . . . . . . . . . .35

Dözəcəm ömürlük mən bu hicrana . . . . . . . . . . . .36
Tanrıdan hər kəsin sevgi payı var . . . . . . . . . . . . .37
Ağlayıram mən səni, səni unutmaq üçün . . . . . . . . .38
Qayıdaq səninlə ötən günlərə . . . . . . . . . . . . . .38
Bu sevdanı necə deyim bilmirəm! . . . . . . . . . . . .39
Sevin-sevilin qızlar . . . . . . . . . . . . . . . . . . . . . .40
Mən səni vəfalı bir yar sanardım . . . . . . . . . . . . .41
Sevgilim . . . . . . . . . . . . . . . . . . . . . . .42
Sevən, xəyanət etməz . . . . . . . . . . . . . . . . . . .42
Sən ötən günlərə heyfslənərsən . . . . . . . . . . . . .43
"Ölməz sevgimiz" . . . . . . . . . . . . . . . . . . . . . . .44
Sevirsənsə . . . . . . . . . . . . . . . . . . . . . .46
Sən mənim eşqimə layiq deyilsən . . . . . . . . . . . .46
Ağlama, geriyə qaytarmaq üçün . . . . . . . . . . . . . .47
Gözlərin eylədi eşqini bəyan . . . . . . . . . . . . . . . .48
Çalış gəncliyinin qədrin biləsən . . . . . . . . . . . . . .48
Sevgini gözlər deyi . . . . . . . . . . . . . . . . . . . . . .49
Bu sevgini unutmayaq . . . . . . . . . . . . . . . . . . . .51

### *Poeziya aləmi*

Mən dənizəm, Ləpə sənsən . . . . . . . . . . . . . . . .52
Yağan yağış . . . . . . . . . . . . . . . . . . . . . .53
Mənim ilə qalasan . . . . . . . . . . . . . . . . . . . . . . .54
Çünki onu sevirsən . . . . . . . . . . . . . . . . . . . . . .55
Sevgimizi yaşadaq . . . . . . . . . . . . . . . . . . . . . . .57
Şirin xəyala dönmüşəm . . . . . . . . . . . . . . . . . . .58
Amansız taleh . . . . . . . . . . . . . . . . . . . . . .58
"Sevgi unudulmur . . . . . . . . . . . . . . . . . . . . . . .60
Səni sevdim . . . . . . . . . . . . . . . . . . . . . .62





### *Qəzəllər*

Ulu Tanrım . . . . . . . . . . . . . . . . . . . . . . . .64
Vətən bizi haraylayır, igidlərim-ərənlərim . . . . . . . .65
Gözləmə sən vəfasız insanlardan eşqə vəfa . . . . . . .66
Məhəbbətəl döyünür şairlərin ürəyi . . . . . . . . . . . .67
Tanrı bağışla məni, keç günahımdan . . . . . . . . . . .68

### *Ana, bacı və qardaş haqqında*

Köç gedir, əbədi bir Ana köçü . . . . . . . . . . . . . . .69
Yaman dərddir sıxır səni qocalıq . . . . . . . . . . . . .70
Atalar . . . . . . . . . . . . . . . . . . . . . . . .71
Ala gözlü anama mənim . . . . . . . . . . . . . . . . . . .72
Qoşadır məzarınız . . . . . . . . . . . . . . . . . . . . .72
Oğul dərd . . . . . . . . . . . . . . . . . . . . . . . .74
Analar, atmayın övladınızı . . . . . . . . . . . . . . . . .75
Yaşamaq istəyirəm ata sənli günləri . . . . . . . . . . .76
Qoşa olsun sizin ömür yolunuz . . . . . . . . . . . . . .78
Ana nurlu səhərim . . . . . . . . . . . . . . . . . . . . . . .79
Ad günün mübarək . . . . . . . . . . . . . . . . . . . . . .80
Ana . . . . . . . . . . . . . . . . . . . . . . . .80
Ana nəsihəti . . . . . . . . . . . . . . . . . . . . . . . .81

### *Körpə balalarımıza*

Sən dünyaya gələndə . . . . . . . . . . . . . . . . . . . .83
Körpə Ləmanım . . . . . . . . . . . . . . . . . . . . . . . .84
Gözəl-göyçək Ayselim, ad günün mübarək . . . . . . . .85

### *Ana Kürüm, mənə şirin layla de*

Xan Araz salam de, məndən elimə . . . . . . . . . . . . .86

Kürüm-Arazım mənim . . . . . . . . . . . . . . . . . . . . .88
Açın quş qəfəslərin . . . . . . . . . . . . . . . . . . . . . .89
Fəxrisiz, şair siz Sabirabadın . . . . . . . . . . . . . . . . .91
Dəniz sahiliydi görüş yerimiz . . . . . . . . . . . . . . . .92
Açılmaz sirri çox ulu bəşərin . . . . . . . . . . . . . . . . .93
"Gözəlliklə halallıq xilas edər dünyanı" . . . . . . . . . .95
Türk xalqının yolunda "Türk qızı" işıq saldı . . . . . . .96
Aldanma heç zaman dünya malına . . . . . . . . . . . . .98
Vətənimin, şair oğlu Zəlimxan! . . . . . . . . . . . . . . .98
Toy günü . . . . . . . . . . . . . . . . . . . . . . . . .100
"Quşların da taleyi insanlara bənzəyir" . . . . . . . . . .101
Həkim . . . . . . . . . . . . . . . . . . . . . . . . .102
Sanki, möcüzədir gözəl təbiət . . . . . . . . . . . . . . .103
Dünya fani dünyadır . . . . . . . . . . . . . . . . . . . . .104
Yurdumuza yaz gəlir . . . . . . . . . . . . . . . . . . . . .104
Vəfalı dost sənə hər an dayaqdır . . . . . . . . . . . . .105



Kitabın işıq üzü görməsində övladlarım Anar və Rəşada öz minnətdarlığımı bildirirəm.

Müəlliflə əlaqə E_mail_kapucina_78@mail.ru

**“Şuşa nəşriyyatı”**

Nəşriyyat redaktoru: **Sarvan Ağayev**
Məsul şəxs: **Etibar Əsgərov**

Dizayner: **Tural İbrahimoğlu**

Kağız formatı: **70x100 1/32**
Sayı: **800 nüsxə**
**Ofset üsulu ilə çap olunmuşdur**

**BAKI 2010**